İnam indeksi 07

May 2022

# Prezidentin fəaliyyəti ictimai rəydə



SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

**İNAM İNDEKSİ / 07**
**Xüsusi buraxılış**

**Yanvar-aprel 2022**

# PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

**Sosioloji sorğu əsasında hazırlanmış**
**ANALİTİK HESABAT**

**Tədqiqat qrupu:**
İctimai rəyin öyrənilməsi departamenti
Daxili siyasətin təhlili departamenti
Sosial-iqtisadi təhlil departamenti

**Bakı - 2022**

**Buraxılışa məsul:** Elşad Mirbəşir oğlu
**Redaktor:** Aqşin Məmmədov
**Dizayner:** Qurban Cəlilov

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1073, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

**Çapa imzalanıb:**
**Fiziki çap vərəqi:**
**Sifariş:**
**Tiraj:**

"MM-S" müəssisəsinin mətbəəsində çap edilmişdir.
**Ünvan:** Azərbaycan Respublikası, AZ 1102, Bakı şəhəri,
Nəsimi rayonu, A.Tağızadə küçəsi, ev 13.

**Telefon:** (+994 12) 431 11 00
(+994 50) 314 09 37

© Sosial Tədqiqatlar Mərkəzi, 2022

“Bugünkü güclü Azərbaycan bütün bu işləri görməyə qadirdir. Siyasi iradə var, iqtisadi güc var, xalqımızın səfərbərliyi var, milli həmrəylik ən yüksək zirvədədir və əlbəttə ki, şanlı tarixi Zəfərimiz hər birimiz üçün qürur mənbəyidir. Biz haqlı olaraq fəxr edirik ki, müzəffər dövlətin vətəndaşlarıyıq, ordumuzla fəxr edirik, insanlarımızla fəxr edirik. Bizə bu xoşbəxtliyi yaşadan gənclərimizlə fəxr edirik və əbədi fəxr edəcəyik. Biz Qarabağa və Şərqi Zəngəzura əbədi qayıtmışıq və burada, tarixi torpaqlarımızda bundan sonra əbədi yaşayacağıq”.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

# MÜNDƏRİCAT

GİRİŞ....5

TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ....7

I BÖLMƏ. POSTMÜHARİBƏ DÖVRÜNDƏ İCTİMAİ, SOSİAL-İQTİSADİ VƏZİYYƏT....10

1.1. İctimai rəyin dövlət idarəçiliyində nəzərə alınması....10
1.2. 2022-ci ilin birinci rübünün ictimai rəydə qiymətləndirilməsi....11
1.3. Yerlərdə baş verənlər barədə məlumatlılıq səviyyəsi....12

II BÖLMƏ. BÖYÜK QAYIDIŞA HAZIRLIQ VƏ QURUCULUQ İŞLƏRİ....14

2.1. İşğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma tədbirləri haqqında ictimai məlumatlılıq və gözləntilər....14
2.2. İşğaldan azad edilmiş ərazilərdə “yaşıl enerji” zonasının yaradılması....16

III BÖLMƏ. POSTMÜHARİBƏ DÖVRÜNDƏ PREZİDENTİN SÜLH GÜNDƏLİYİ....17

3.1. Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına və diplomatik əlaqələrin qurulmasına ictimai münasibət....17
3.2. Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşdırılmasına vasitəçilik edən ölkələrə/təşkilatlara münasibət....18

IV BÖLMƏ. PREZİDENTİN MÜXTƏLİF İSTİQAMƏTLƏRDƏ FƏALİYYƏTİNƏ MÜNASİBƏT...20

4.1. Prezidentin hərbi quruculuq, xarici siyasət, əhalinin mülki təhlükəsizliyi, sosial müdafiə tədbirləri, kadr islahatları sahələrində fəaliyyətinə münasibət....20
4.2. Dövlət orqanlarının, nazirlik, komitə və xidmətlərin fəaliyyətinə münasibət....42
4.3. Ölkənin 5 mühüm problemi və Prezidentdən əsas ictimai gözləntilər....45
4.4. Prezidentin fəaliyyətinə dair informasiya mənbələri....47

V BÖLMƏ. İNAM VƏ ETİMADIN DİNAMİKASI....49

5.1. Prezidentə inam və etimad....49
5.2. Milli Məclisə və məhkəmə orqanlarına inam və etimad....50
5.3. Yuxarı və yerli icra hakimiyyəti orqanlarına inam və etimad....51

NƏTİCƏ....53

# GİRİŞ

Sosial Tədqiqatlar Mərkəzi ötən dövrdəki ənənəyə sadiq qalaraq, 2022-ci ilin ilk dörd ayı üzrə Prezidentin fəaliyyətinə ictimai münasibəti öyrənmək məqsədilə vətəndaşlar arasında rəy sorğusu keçirib. Sorğu Prezidentin fəaliyyətinə ictimai münasibətin monitorinqi olmaqla yanaşı, həm də dövr üzrə baş vermiş ictimai-siyasi proseslərin vətəndaş rəyində dəyərləndirilməsini özündə ehtiva edir. Sorğunun müntəzəm qaydada keçirilməsi dövlət başçısının müxtəlif istiqamətlərdə fəaliyyətinə vətəndaşların münasibətini müqayisəli şəkildə təhlil etmək imkanı yaradır. Həmçinin həmin istiqamətlər üzrə cari dövr ərzində baş verən hadisələrin, aktual proseslərin ictimai rəydə qiymətləndirilməsini nəzərdə tutur. Belə ki, ictimai rəy sorğusu əsasında təqvimdə tarixi əhəmiyyətə və xüsusi çəkiyə malik olan müxtəlif aktual hadisələr, xüsusən işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq tədbirləri, böyük qayıdışa hazırlıq prosesləri, sülh gündəliyi, beynəlxalq və yerli əhəmiyyətli bir sıra proseslərə münasibət, Prezidentə, eləcə də dövlət hakimiyyətinin qollarına, ayrı-ayrı dövlət strukturlarına olan ictimai inam və etimad səviyyəsi öyrənilib.

2022-ci ilin ilk dörd ayı istər beynəlxalq müstəvidə baş verən dinamik proseslər baxımından həm xarici siyasət sahəsində, həm də daxili siyasət üzrə olduqca məhsuldar bir tarixi dövr olub. Ümumiləşdirərək qeyd etmək olar ki, cari ilin yanvar-aprel aylarını əhatə edən müddət ərzində ölkə rəhbəri tərəfindən ictimaiyyətə açıq məlumatlara əsasən beynəlxalq və yerli səviyyəli 20-dən çox görüş və səfər, 30-dan çox müşavirə, müsahibə və mətbuat konfransı səviyyəli tədbirlərdə çıxış, 50-yə yaxın qəbul, xarici ölkə rəhbərləri və rəsmiləri ilə 20-dən artıq telefon danışığı, əsas hissəsi işğaldan azad edilmiş əraziləri əhatə etməklə 30-dan çox təməlqoyma və açılış mərasimi həyata keçirilib.

Prezidentin cari ilin ilk dörd ayı üzrə ictimai-siyasi fəaliyyətinin xronikasını əsas vektorlar üzrə qruplaşdıraraq nəzərdən keçirmək mümkündür. Cari dövr ərzində Prezidentin xarici ölkələrə səfərlərinin ümumi mənzərəsi onu deməyə əsas verir ki, Azərbaycan postmünaqişə dövründə çoxtərəfli xarici siyasət kursunu uğurla davam etdirib. Bu sahədə fəaliyyətin əsas istiqamətlərindən biri kimi postmüharibə dövründə diplomatik əlaqələrin genişləndirilməsi, sülh quruculuğu prosesində təşəbbüskar tərəflərin, qonşu ölkələrin və Avropa İttifaqı Şurasının iştirakına imkan yaradılması, həmçinin Azərbaycan həqiqətlərinin davamlı olaraq dünyaya çatdırılması və qəbul etdirilməsi kimi qeyd oluna bilər. Xarici siyasətin digər istiqaməti kimi geosiyasi müstəvidə baş verən qarşıdurmalar, Rusiya-Ukrayna müharibəsi zəminində Azərbaycanın tərəflərlə qarşılıqlı müsbət münasibətlərini qoruması, milli maraqları üstün tutan xarici siyasi kursunu davam etdirməsi nəzərə çatdırıla bilər. Xarici siyasətin digər mühüm kursu kimi Türkiyə və digər türkdilli dövlətlər ilə yaxın dostluq və qardaşlıq münasibətlərinin gücləndirilməsi, qarşılıqlı maraqlar zəminində inteqrasiya və ölkənin tranzit imkanlarının daha da genişləndirilməsi vurğulana bilər.

Uğurlu xarici siyasətlə yanaşı, Prezidentin siyasi iradəsi ilə ötən bir neçə il ərzində aparılan islahatlar kursu və həyata keçirilən genişmiqyaslı transformasiyalar, dövlət həyatının müxtəlif sahələri üzrə müəyyən edilən yeni strategiya bütövlükdə daxili siyasətin ayrı-ayrı istiqamətlərini yenidən formalaşdırıb. Vətən müharibəsində qazanılan qələbə cəmiyyətdə milli birlik, həmrəylik və ruh yüksəkliyini gücləndirib, eləcə də digər sahələrə doğru dalğa effekti yaradıb. Siyasi həyatda, dövlət idarəçiliyində vətəndaş iştirakçılığının genişləndirilməsi, ictimai nəzarət çağırışları əsas etibarilə dövlət və cəmiyyət arasında kommunikasiya imkanlarının gücləndirilməsini, dövlət strukturlarının şəffaf, operativ, hesabatlı fəaliyyətini şərtləndirib. Həmçinin ayrı-ayrı dövlət strukturlarını, xüsusilə də yerli icra hakimiyyəti orqanlarını əhatə edən kadr islahatları davam edib. İlin ilk dörd ayı ərzində ölkə rəhbəri tərəfindən 10 vəzifəli şəxsin təyinatı ilə bağlı sərəncam imzalanıb. Prezidentin yerlərdə baş verənlər barədə məlumatlı olması, eləcə də öz fəaliyyətində ictimai rəyi nəzərə alması keçirilmiş sorğular zamanı vətəndaş rəyində öz təsdiqini tapıb. Daxili siyasət, eləcə də sosial-iqtisadi istiqamətlərdə aparılan siyasətin ümumiləşmiş nəticəsi kimi qeyd etmək mümkündür ki, rəy sorğusunda iştirak edənlərin mütləq əksəriyyəti ilin ilk dörd ayını həm özü, həm də ölkə üçün uğurlu hesab edib.

Hər zaman olduğu kimi, hazırkı dövr üzrə də sosial və iqtisadi istiqamətlər dövlət siyasətinin prioritetləri arasında yer alıb. Beynəlxalq Əmək Təşkilatının 2022-ci il üzrə məlumatına əsasən, dünyada 4 milyarddan artıq insanın sosial müdafiədən kənarda qaldığı qlobal sosial-iqtisadi

zəmində, pandemiya və postmüharibə şəraitində dövlət başçısının müvafiq sərəncamları əsasında əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində yeni islahatlar paketi təsdiqlənib. Cari ilin əvvəlindən hazırlanan növbəti sosial islahatlar paketində əmək haqqı, pensiya və digər sosial ödənişlər üzrə artım icra olunub. Sözügedən islahatlar paketi bütövlükdə 3.4 milyon vətəndaşı əhatə edib. Sosial siyasətin mühüm istiqamətini müharibə iştirakçılarının və şəhid ailələrinin təminatının yüksəldilməsi təşkil edib. Dövlət başçısının tapşırıqlarına əsasən müharibə iştirakçılarına və şəhid ailələrinə xüsusi yanaşma davam etdirilib, onların mənzil-məişət şəraitinin, rifahının, məşğulluq imkanlarının artırılması istiqamətində müxtəlif tədbirlər görülüb. Keçirilmiş rəy sorğuları Prezidentin bu istiqamətdəki qayğı və dəstək fəaliyyətindən respondentlərin yüksək razılıq göstəricisini ortaya çıxarıb.

Cari il ərzində qeyri-formal məşğulluq və korrupsiya kimi neqativ hallara qarşı dövlət siyasəti davam etdirilib, bu istiqamətdə növbəti dövrü əhatə edən yeni dövlət proqramları qəbul olunub. İqtisadiyyatı şaxələndirmək və neftdən asılılığı azaltmaq məqsədilə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət ayrılıb və ölkə rəhbərliyi bu sahəni hər zaman bilavasitə nəzarətdə saxlayıb. Digər tərəfdən, qlobal təhdidə çevrilən ərzaq təhlükəsizliyi probleminə qarşı qabaqlayıcı tədbirlər planı icra edilib, yerli istehsal potensialının yüksəldilməsi, yerli özünütəminat səviyyəsinin qorunması, ərzaq təhlükəsizliyi istiqamətində yeni mexanizmlərin yaradılması, idxal-ixrac əməliyyatlarına və yerli ehtiyatlara nəzarət, qiymət manipulyasiyasının qarşısının alınması bu istiqamətdəki başlıca hədəflər arasında qərarlaşıb.

Bu dövr ərzində enerji siyasəti dövlət başçısının fəaliyyət təqvimində mühüm yer tutub. Bu sahədə xarici və milli investisiya hesabına ölkə və yerli əhəmiyyətli müxtəlif layihələr icra olunub. Karbohidrogen ehtiyatlarından asılılığı azaldaraq bərpa olunan enerji resurslarına yönəlmək bu istiqamətdə siyasətin əsaslarını təşkil edib. Digər tərəfdən, yeni enerji siyasəti ölkəyə regional enerji bazarında əlavə üstünlüklər qazandırıb. Ənənəvi resurslardan alternativ və bərpa olunan resurslara yönəlmək baxımından işğaldan azad edilmiş ərazilərin yüksək potensialını nəzərə alaraq, bu ərazilər "yaşıl enerji" zonasına daxil edilib. Keçirilmiş cari sorğunun nəticələri ictimaiyyətin işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılmasına yüksək dəstəyini göstərib.

Ümumiləşdirərək qeyd etmək olar ki, ötən dövrləri və cari ilin ilk dörd ayını əhatə edən rəy sorğuları dövlət başçısının fədakar fəaliyyətinin ictimaiyyət tərəfindən mütləq mənada dəstəkləndiyini göstərib. Hazırkı sorğunun nəticələrində Prezidentin hərbi quruculuq, xarici siyasət və postmüharibə dövründə gənclər siyasəti sorğu iştirakçıları tərəfindən ən yüksək qiymətləndirilən istiqamətlər olub. Xüsusən Prezident tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni hərbi hissələrin açılışı edilib, bu ərazilərdə dislokasiya olunan bölmələrin təminatı və döyüş hazırlığı səviyyəsinin yüksəldilməsinə daim yüksək diqqət göstərilib.

İşğaldan azad edilmiş ərazilərin təhlükəsizliyinin gücləndirilməsi ilə yanaşı, bərpası, yenidən qurulması istiqamətində tədbirlər fasiləsiz rejimdə davam etdirilib. Böyük qayıdışa hazırlıq məqsədilə təkcə bu dörd aylıq dövr ərzində işğaldan azad edilmiş ərazilərdə yeni yaşayış komplekslərinin, təhsil və səhiyyə obyektlərinin, turizm komplekslərinin, sənaye müəssisələrinin, ibadət ocaqlarının təməli qoyulub. Həmçinin maddi mədəniyyət nümunələrinin bərpası istiqamətində işlər davam edib. Təkcə onu qeyd etmək yetərlidir ki, Prezident tərəfindən işğaldan azad edilmiş ərazilərə 23 dəfə səfər olunub. Təqribən bir il yarım müddət ərzində edilən səfərlərin dinamikası bu sahədə fəaliyyətin dövlət başçısının prioritetləri arasında olduğunu göstərir. Həmçinin Novruz bayramı münasibətilə bayram tonqalının ötən il Şuşada, Cıdır düzündə, bu il Suqovuşan qəsəbəsində qalanması mühüm rəmzi məna daşıyır.

# TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ

### Metodoloji yanaşma

Tədqiqatın keçirilməsində kəmiyyət metodologiyasından istifadə edilib. Sorğu Bakı, Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatala, Qarabağ, Mərkəzi Aran, Mil-Muğan və Şirvan-Salyan iqtisadi rayonları üzrə keçirilib və 1081 respondentin rəyi öyrənilib. Naxçıvan Muxtar Respublikası və işğaldan yeni azad edilən regionlar sorğuda əhatə edilməyib.

### Respondentlərin seçimi

Tədqiqat çərçivəsində respondentlərin seçimində çoxpilləli təsadüfi seçmə metodundan istifadə edilib. İlk mərhələdə sorğuda əhatə ediləcək yaşayış məntəqələri müəyyənləşdirilib. Növbəti mərhələdə isə sorğu aparacaq əməkdaşlar sahəyə çıxaraq, onlara təyin edilən məntəqələrdə müəyyən edilmiş istiqamətdə hərəkət edib. Respondentlərin seçimində hər bir sosial-demoqrafik qrupun gender çəkisi onların ölkə üzrə sayına proporsional qaydada müəyyənləşdirilib. Sorğuda əhatə edilmiş respondent sayına (1081 nəfər) əsasən, nəticələrin xəta əmsalı 95% əminlik intervalında 3 % təşkil edir.

### Sorğu anketi

Sorğu anketi 44 (33 spesifik və 11 sosial-demoqrafik) sualdan ibarətdir. Suallar əsasən Prezidentin müxtəlif istiqamətlərdə fəaliyyəti, Prezidentin səfərlərinə, görüşlərinə, müsahibələrinə, Qarabağda quruculuq və bərpa proseslərinə ictimai münasibət, Prezidentə, Milli Məclis və məhkəmə orqanlarına, yuxarı və yerli icra hakimiyyəti orqanlarına inam və etimadın ölçülməsi, postmüharibə dövründə ictimai, sosial-iqtisadi vəziyyət və əsas gözləntilər, Prezidentin fəaliyyətinə dair informasiya mənbələri və s. öyrənmək məqsədilə hazırlanıb.

### Təlimat

İntervüyerlər üçün təlimat qaydaları hazırlanıb. İşə başlamamışdan əvvəl Mərkəzin əməkdaşları tərəfindən intervüyerlərə təlim keçirilib. Təlim zamanı intervüyerlər anket və təlimatlarla tanış olaraq, sorğunun keçirilməsi üçün tam hazır olublar. Sorğu anketindəki hər bir sual üzrə geniş izahatlar verilib və intervüyerlər tərəfindən test sorğusu aparılıb.

### Sorğunun aparılması üsulu

Sorğuların keçirilməsində müasir texnologiyalar tətbiq olunub. Belə ki, sorğular planşetlər vasitəsilə həyata keçirilib. Son illər ABŞ-da və Böyük Britaniyada daha geniş tətbiq olunan və müasir sorğu proqramı kimi qəbul olunan SurveyToGo proqramından istifadə edilib. Bu proqram sorğu heyətinin işinə nəzarət etmək, sorğu prosesinə onlayn müşahidəni əldə saxlamaq və etibarlı informasiya almaq baxımından bir sıra üstünlüklərə malikdir.

### Sahə işi

Sahə işi 2022-ci ilin 19 may – 31 may tarixlərində keçirilib. Bir sorğunun orta davametmə müddəti 15 dəqiqə 8 saniyə təşkil edib.

Bütün müsahibələrdə anonimlik təmin edilib. Respondentlər əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığını təmin edib.

### Məlumatların işlənilməsi və təhlili

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə toplanılan məlumatlar bazaya daxil edilərək xüsusi proqram SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib.

## Tədqiqatın metodoloji prinsipləri

| | |
|---|---|
| **Respondentlərin sayı** | 1081 respondent |
| **Respondentlərin seçimi** | 18 yaşdan yuxarı əhali qrupları üzrə çoxpilləli stratifikasiya seçmə metodu ilə təsadüfi seçmə aparılıb |
| **Əminlik intervalı və xəta dərəcəsi** | 95% və 3.0% |
| **Məlumat toplama metodu** | Sorğunun aparılmasında üz-üzə anket sorğusu üsulundan istifadə olunub |
| **Sorğunun keçirilmə tarixi** | Sahə işi 19 may - 31 may 2022-ci il tarixlərində aparılıb |
| **Tədqiqatın əhatə dairəsi** | Bakı, Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Lənkəran-Astara, Quba-Xaçmaz, Qarabağ, Şəki-Zaqatala, Mil-Muğam, Mərkəzi Aran, Şirvan-Salyan |
| **Respondentlərin seçimində tətbiq edilən meyar** | Yaş və gender balansı |
| **Məlumatların işlənilməsi və təhlili** | Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə birbaşa bazada toplanan məlumatlar SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib. |

## Demoqrafik göstəricilər

### Cins tərkibi

| Kişi | Qadın |
|---|---|
| 52.4% | 47.6% |

### Təhsil səviyyəsi

| Ali | Peşə-ixtisas | Orta |
|---|---|---|
| 25.2% | 26.5% | 48.3% |

### Məskunlaşdığı yer

| Şəhər | Qəsəbə | Kənd |
|---|---|---|
| 34.2% | 10.9% | 54.9% |

### Yaş qrupu

| 18-25 | 26-35 | 36-45 | 46-55 | 56-65 | 65+ |
|---|---|---|---|---|---|
| 8.6% | 17.1% | 17.7% | 22.9% | 24.4% | 9.3% |

### Gəlir səviyyəsi

| 0-250 | 251-500 | 501-750 | 751-1000 | 1000+ | imtina |
|---|---|---|---|---|---|
| 8.6% | 17.1% | 17.7% | 22.9% | 24.4% | 9.3% |

### Məşğuliyyət

| | |
|---|---|
| Dövlət sektoru | 34.3% |
| Özəl sektor | 6.7% |
| Fərdi əmək fəaliyyəti | 11.0% |
| İşsiz, hal-hazırda iş axtarır | 15.4% |
| İşsiz, hal-hazırda iş axtarmır | 2.8% |
| Tələbə | 2.9% |
| Təqaüdçü | 14.0% |
| Evdar qadın | 12.4% |
| Digər | 0.5% |

## İqtisadi rayonlar üzrə bölgü



| | |
|---|---|
| Quba-Xaçmaz | 6.1% |
| Şəki-Zaqatala | 6.8% |
| Qazax-Tovuz | 7.2% |
| Gəncə-Daşkəsən | 6.5% |
| Dağlıq Şirvan | 3.3% |
| Bakı | 24.6% |
| Abşeron-Xızı | 6.1% |
| Mərkəzi Aran | 7.8% |
| Qarabağ | 9.7% |
| Mil-Muğan | 5.6% |
| Şirvan-Salyan | 5.2% |
| Lənkəran-Astara | 11.2% |

# I BÖLMƏ.

# POSTMÜHARİBƏ DÖVRÜNDƏ İCTİMAİ, SOSİAL-İQTİSADİ VƏZİYYƏT

## 1.1. İctimai rəyin dövlət idarəçiliyində nəzərə alınması

Cəmiyyətin siyasi sisteminin inkişaf etdirilməsi, sosial-iqtisadi siyasət, sosial-mədəni və mənəvi inkişaf sahəsində fəaliyyətin əsas istiqamətləri Prezidentin daxili siyasətə dair tezislərinə əsaslanır. İctimai-siyasi sabitliyin qorunması dövlətin və cəmiyyətin sosial-iqtisadi və mədəni inkişafını, təhlükəsizliyini təmin edən mühüm prinsiplərdən biridir. Sabitliyə təminat verən digər amil ölkədə sosial yönümlü qanunların qəbul edilməsi və icrası, siyasi-hüquqi islahatların uğurla həyata keçirilməsidir. Azərbaycanda ictimai-siyasi sabitliyin təməlində vətəndaş həmrəyliyi, vətəndaşların dövlət başçısına, mövcud hakimiyyətə etimadı və etibarı dayanır.

Prezident İlham Əliyev çıxışlarında dövlətin fəaliyyətində ictimai rəyin nəzərə alınmasının yeni idarəçilik fəlsəfəsinin bir nömrəli tələbi, XXI əsrin sürətlə dəyişən kommunikasiya şərtlərinin ən həlledici amillərindən olduğunu dəfələrlə vurğulayıb. Bu, özünü cari sorğuda “Ölkə Prezidenti öz fəaliyyətində vətəndaşların rəyini nəzərə alır” fikrinə ictimai münasibətdə də göstərir. Belə ki, respondentlərin 67.6%-i bu fikirlə tam, 23.9%-i isə əsasən razı olduğunu bildirib. Rəyi soruşulanların 2.3%-i bu fikirlə əsasən, 5.1%-i heç razı deyil.

❖ Sorğu nəticələrinin təhlili göstərir ki, ümumi seçmə içərisində orta və yuxarı yaş qruplarını təmsil edənlərin, qəsəbədə yaşayanların, ibtidai təhsillilərin, dövlət sektorunda işləyənlərin, yüksək gəlir qrupunu təmsil edənlərin, Bakı, Qazax-Tovuz, Lənkəran-Astara və Qarabağ iqtisadi rayonlarından olan respondentlərin bu fkirlə tam razılıq dərəcəsi daha üstündür.

❖ Gender bölgüsündə ciddi fərq müşahidə edilmir. Tam razılıq göstəricisi 65.0%-in üstündədir.

❖ Onu da əlavə edək ki, “əsasən razıyam” variantında nisbi üstünlük tələbələr, nisbətən yüksək gəlir qrupunu təmsil edənlər, Dağlıq Şirvandan olan respondentlər arasında müşahidə edilir.

❖ Gənclərin 6.5%-i, şəhərdə yaşayanların 8.1%-i, tam orta təhsillilərin 6.1%-i, ali təhsillilərin 4.8%-i, qadınların 6.0%-i, işsiz olub hal-hazırda iş axtarmayanların 10.0%-i, evdar qadınların 8.2%-i, aşağı gəlir qrupunu təmsil edənlərin 10.3%-i bu fikirlə heç razı olmadıqlarını bildiriblər. Abşeron-Xızı və Quba-Xaçmaz iqtisadi rayonlarından olan respondentlərin az bir hissəsi də bu mövqeyi ortaya qoyublar.



❖ Bu suala cavab verməkdə çətinlik çəkən respondentlər arasında nisbi üstünlük Quba-Xaçmaz iqtisadi rayonu üzrə müşahidə edilib.

❖ Qeyd edək ki, "Ölkə Prezidenti öz fəaliyyətində vətəndaşların rəyini nəzərə alır" fikri ilə tam razı olanların 80.8%-nin Prezindentdən əsas gözləntisi yeni iş yerlərinin yaradılmasıdır.

### 1.2. 2022-ci ilin birinci rübünün ictimai rəydə qiymətləndirilməsi

Sorğu çərçivəsində sosial-iqtisadi və siyasi vəziyyətə münasibətlə yanaşı, hadisələrin yüksək dinamikasından irəli gələrək respondentlərdən cari ilin birinci rübünü ümumilikdə özü və ölkəmiz üçün necə dəyərləndirdiyi də soruşulub. Əldə olunan nəticələrə əsasən, 2022-ci ilin birinci rübü vətəndaşlar ("çox yaxşı" 36.6%, "əsasən yaxşı" 45.7%) və ölkəmiz üçün ("çox yaxşı" 48.1% və "əsasən yaxşı" 39.7%) uğurlu olub. Bunun əksinə fikirləşənlər müvafiq olaraq 9.4% və 4.2% təşkil edir.

❖ Sorğu nəticələrinin təhlili belə bir mənzərini ortaya qoyur ki, 2022-ci ilin birinci rübünü özü üçün "çox yaxşı" qiymətləndirənlər əsasən orta yaş qrupuna aid olan respondentlərdir. Aşağı yaş qrupuna aid olan respondentlər isə "əsasən yaxşı" variantına üstünlük veriblər.

❖ Bundan başqa, qəsəbədə yaşayanlar, tam orta təhsillilər, qadınlara nisbətdə kişilər, dövlət sektorunda işləyənlər, yüksək gəlir qrupunu təmsil edənlər, Qazax-Tovuz iqtisadi rayonlarından olan respondentlər "çox yaxşı" variantını daha çox seçdikləri halda, şəhər və kənd ərazi vahidlərində yaşayanlar, ali təhsillilər, qadınlar, tələbələr, nisbətən yüksək gəlir qrupunu təmsil edənlər, Şirvan-Salyan, Quba-Xaçmaz və Gəncə-Daşkəsən iqtisadi rayonlarından olan respondentlər "əsasən yaxşı" variantına üstünlük veriblər.

❖ 2022-ci ilin birinci rübünü özü üçün "çox pis" qiymətləndirənlər isə yuxarı yaş qrupunu təmsil edənlər, şəhərdə yaşayanlar, ibtidai təhsillilər, ümumi orta təhsillilər, gender bölgüsünə görə qadınlar, özəl sektorda işləyənlər, təqaüdçülər, işsiz olub hal-hazırda iş axtaranlar, evdar qadınlar, aşağı gəlir qrupunu təmsil edənlər, Bakı, Quba-Xaçmaz və Mil-Muğan iqtisadi rayonlarında yaşayan respondentlər olublar. Abşeron-Xızı iqtisadi rayonundan olan respondentlərin 7.6%-i, tələbələrin 6.5%-i, yuxarı yaş qrupunu təmsil edənlərin 3.0%-i bu suala cavab verməkdə çətinlik çəkiblər.

❖ Qeyd edək ki, 2022-ci ilin birinci rübünü özü üçün "çox yaxşı" qiymətləndirənlərin 86.9%-i Prezidentin sosial müdafiə sahəsindəki fəaliyyətini müsbət qiymətləndirib.

❖ 2022-ci ilin birinci rübünü ümumilikdə ölkəmiz üçün "çox yaxşı" qiymətləndirənlər orta və yuxarı yaş qrupunu təmsil edənlər, qəsəbədə yaşayanlar, tam orta təhsillilər, qadınlara nisbətdə kişilər, dövlət sektorunda işləyənlər və təqaüdçülər, yüksək gəlir qrupunu təmsil edənlər, Dağlıq-Şirvan, Qazax-Tovuz və Qarabağ iqtisadi rayonlarından olan respondentlər olublar.

❖ "Əsasən yaxşı" variantını isə aşağı yaş qrupunu təmsil edənlər, ali təhsillilər, qadınlar, tələbələr, nisbətən yüksək gəlir qrupunu təmsil edənlər, Abşeron-Xızı və Quba-Xaçmaz iqtisadi rayonlarından olan respondentlər seçiblər.

❖ Bu suala cavab verməkdə çətinlik çəkən-






lər aşağı gəlir qrupunu təmsil edənlər, tələbələr, qadınlar, ibtidai təhsili olanlar, qəsəbədə yaşayanlar və Abşeron-Xızı iqtisadi rayonundan olan respondentlər olublar.

❖ 2022-ci ilin birinci rübünü ümumilikdə ölkəmiz üçün “çox pis” qiymətləndirənlər arasında bir neçə kriteriya üzrə aşağıdakı qruplar nisbi üstünlük təşkil edir: nisbətən yuxarı yaş qrupunu təmsil edənlər, şəhərdə yaşayanlar, tam orta təhsillilər, özəl sektorda işləyənlər, işsiz olub hal-hazırda iş axtaranlar, evdar qadınlar, nisbətən aşağı gəlir qrupunu təmsil edənlər və Dağlıq-Şirvan iqtisadi rayonunu təmsil edən respondentlər.

❖ 2022-ci ilin birinci rübünü ölkəmiz üçün “çox yaxşı” qiymətləndirənlərin 95.7%-i Prezidentin xarici siyasət sahəsindəki fəaliyyətini yüksək qiymətləndirib.

Sorğunun nəticələri bir daha göstərir ki, Prezidentin tapşırığı ilə xüsusilə son illərdə həyata keçirilən struktur və kadr islahatları, sosial-iqtisadi layihələr, pandemiyaya qarşı mübarizə tədbirləri öz nəticələrini verməkdə və bunu hər bir vətəndaş öz həyatında hiss etməkdədir.

Bu kontekstdə onu da xatırladaq ki, 2021-ci ilin 22 noyabr – 2 dekabr tarixlərində keçirilmiş sorğuda respondentlərdən “Bir il sonra özünüzün və ailənizin yaşayışının indiki ilə müqayisədə necə olacağını düşünürsünüz?” sualı ünvanlanmışdı. Həmin sorğuda iştirak edən vətəndaşların 20.4%-i növbəti il (yəni 2022-ci il) özünün (eyni qədəri ailəsinin) sosial-iqtisadi vəziyyətinin bu il (yəni 2021-ci il) ilə müqayisədə çox yaxşılaşacağını, 35.6%-i (36.2%-i ailəsinin) əsasən yaxşılaşacağını güman etdiyini bildirmişdi. Özünün və ailəsinin rifahında heç bir dəyişiklik gözləmədiyini bildirənlər müvafiq olaraq 14.5% və 14.1% təşkil etmişdi. Öz rifah vəziyyətinin cari (2021-ci) il ilə müqayisədə əsasən pisləşəcəyini güman edənlər 7.8% (7.5% ailəsinin), çox pisləşəcəyini güman edənlər isə cəmi 6.6% (6.4% ailəsinin) təşkil etmişdi. Respondentlərin 15.2%-i özünün (15.4% ailəsinin) gələcəyi ilə bağlı gözləntiləri dəyərləndirməkdə çətinlik çəkmişdi.

Hər iki sorğunun müqayisəli təhlili göstərir ki, aparılan sosial-iqtisadi siyasət nəticəsində respondentlərin gözləntiləri özünü doğruldub. Bu istiqamətdə ciddi artım dinamikası müşahidə edilir.

### 1.3. Yerlərdə baş verənlər barədə məlumatlılıq səviyyəsi

Sorğuda iştirak edən respondentlərin 45.6%-i bu qənaətdədir ki, Prezident yerlərdə baş verənlər barədə çox, 38.1%-i isə bu fikirdədir ki, əsasən məlumatlıdır. Respondentlərin 4.9%-i bu fikri bölüşür ki, Prezident yerlərdə baş verənlər barədə heç məlumatlı deyil. Rəyi soruşulanların 8.7%-i əsasən məlumatsız olduğunu düşünür.

❖ Sorğu nəticələrinin təhlilinə əsasən nisbətən yuxarı yaş qrupunu təmsil edənlər, kənddə yaşayanlar, qadınlara nisbətdə kişilər, evdar qadınlar, aşağı gəlir qrupunu təmsil edənlər, Qazax-Tovuz, Qarabağ və Şirvan-Salyan iqtisadi rayonundan olan respondentlər “çox məlumatlıdır” variantına üstünlük veriblər.

❖ “Əsasən məlumatlıdır” cavab variantını




isə orta və yuxarı yaş qrupunu təmsil edənlər, qəsəbədə yaşayanlar, texniki və ya peşə təhsillilər, ali təhsillilər, dövlət sektorunda işləyənlər, işsiz olub iş axtaranlar, tələbələr, nisbətən yüksək gəlir qrupunu təmsil edənlər, Gəncə-Daşkəsən və Quba-Xaçmaz iqtisadi rayonundan olan respondentlər seçiblər.

❖ Ümumi seçmə içərisində nisbətən yuxarı yaş qrupunu təmsil edənlər, şəhərdə yaşayanlar, tam orta təhsillilər, işsiz olub hal-hazırda iş axtaranlar, evdar qadınlar, aşağı gəlir qrupunu təmsil edənlər, Bakı və Gəncə-Daşkəsən iqtisadi rayonundan olan respondentlər bu barədə heç bir məlumata malik deyillər.

❖ “Prezident yerlərdə baş verənlər barədə çox məlumatlıdır” deyənlərin 75.9%-i Prezidentin korrupsiya ilə mübarizə istiqamətində fəaliyyətini “çox yaxşı” qiymətləndirib.

❖ “Prezident yerlərdə baş verənlər barədə “çox məlumatlıdır” deyənlərin 86.0%-i Prezidentin ictimai-siyasi sabitlik istiqamətində fəaliyyətini də yüksək qiymətləndirib.

Qeyd edək ki, 2021-ci ilin 01-12 aprel tarixlərində keçirilmiş sorğuda da respondentlərə Prezidentin vətəndaşların vəziyyətindən nə dərəcədə məlumatlı olması soruşulub. Respondentlərin 36.1%-nin fikirincə, Prezident vətəndaşların vəziyyətindən tam, 39%-nin qənaətinə görə isə müəyyən qədər məlumatlıdır (75.1%). Bunun əksinə olaraq respondentlərin 17.7%-i bu fikirdə olmuşdu ki, Prezident vətəndaşların vəziyyətindən az məlumatlıdır, yaxud heç bir məlumatı yoxdur (6.6%).

Bundan başqa, rəyi soruşulanların dörddə bir hissəsi (24.9%) belə düşünürdü ki, yerlərdə baş verən bütün hadisələr Prezidentə olduğu kimi çatdırılır. Bunun əksinə, respondentlərin 5.5%-i belə düşünürdü ki, Prezidentə yalnız mənfi məlumatlar çatdırılır. Respondentlərin 6.1%-i isə bu suala cavab verməkdə çətinlik çəkmişdi.

# II BÖLMƏ.

# BÖYÜK QAYIDIŞA HAZIRLIQ VƏ QURUCULUQ İŞLƏRİ

Zəngin iqtisadi potensial və kənd təsərrüfatı baxımından böyük imkanlara malik Qarabağ və Şərqi Zəngəzurun bərpası hazırkı dövr üçün əsas milli prioritetlərdəndir. Bu mənada, 12 aprel 2022-ci il tarixində Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə sözügedən məsələlərin yenidən gündəliyə gətirilməsi onu göstərdi ki, keçmiş məcburi köçkünləri öz yurd-yuvalarına qaytarmaq üçün kompleks tədbirlər həyata keçirilir. Dövlət başçısının öz nitqində Şuşa və İstisunun bərpası, eləcə də digər ərazilərə insanların qayıdışının tezləşdirilməsi barədə söylədikləri 2022-ci ilin tarixə Böyük qayıdış ili kimi düşəcəyini deməyə əsas verir. Qarabağ və Şərqi Zəngəzuru nümunəvi bölgə kimi quracağımızı söyləyən dövlət başçısının beynəlxalq təşkilatlara ünvanladığı mesaj da xüsusi əhəmiyyət kəsb edir.

Yaşayış binaları, infrastruktur, iş yerləri, kənd təsərrüfatı ilə məşğul olmaq imkanları, sənaye parkları və s. kimi işlərin planlı həyata keçirilməsi Qarabağda böyük qayıdışa addım-addım yaxınlaşdığımızı göstərir. Ölkə başçısının da dediyi kimi, Azərbaycan Qarabağ torpaqlarına yenidən həyat qaytaracaq. Prezident hər fürsətdə xalqa xatırladır ki, bizim işimiz torpaqları azad etməklə bitməyib. Əksinə, yaranan yeni reallıqlar fonunda azad edilən torpaqlarımızda aparılan bərpa-quruculuq işləri bizim üçün yeni mübarizə meydanıdır.

Həm cari, həm də əvvəlki sorğuların nəticələri göstərir ki, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi Prezidentin diqqət mərkəzində saxladığı məsələlərdir. Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərə, o cümlədən Qarabağa Böyük qayıdışın ölkə başçısı üçün prioritet olması onun çıxışlarında dəfələrlə qeyd olunub. 2021-ci ilin aprel ayında keçirilmiş sorğuda vətəndaş rəyi də onu bir daha təsdiq edir. Belə ki, həmin sorğuda rəyi soruşulanların 84.6%-i Qarabağa qayıdışın ölkə başçısı üçün prioritet olması fikri ilə tam, 12.2%-i əsasən razı olduğunu bildirmişdi.

## 2.1. İşğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma tədbirləri haqqında ictimai məlumatlılıq və gözləntilər

Hal-hazırda işğaldan azad edilmiş ərazilərdə aparılan abadlıq-quruculuq işləri ölkəmizin iqtisadi qüdrətini bir daha ortaya qoyur. Cari sorğu-

**Prezidentin təşəbbüsü və nəzarəti altında işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma tədbirləri gözləntilərinizi nə dərəcədə doğruldur?**



nun nəticələrinin təhlili göstərir ki, Prezidentin təşəbbüsü və nəzarəti altında işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma tədbirləri respondentlərin 76.7%-nin gözləntilərini tam, 19.4%-nin isə əsasən doğruldur.

❖ Nəticələrin təhlilinə əsasən Prezidentin təşəbbüsü və nəzarəti altında işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma tədbirləri nisbətən yuxarı yaş qrupunu təmsil edənlərin, kənddə yaşayanların, tam orta təhsillilərin, dövlət sektorunda çalışanların, yüksək gəlir qrupunu təmsil edənlərin, Qazax-Tovuz və Qarabağ iqtisadi rayonlarından olan respondentlərin gözləntilərini nisbətən daha çox doğruldur.

❖ “Əsasən doğruldur” cavab variantını isə aşağı yaş qrupunu təmsil edənlər, şəhərdə yaşayanlar, texniki və ya peşə təhsillilər, işsiz olub hal-hazırda iş axtaranlar, tələbələr, yüksək gəlir qrupunu təmsil edənlər, Mil-Muğan iqtisadi rayonundan olan respondentlər nisbətən çox seçiblər.

❖ Quba-Xaçmaz və Dağlıq Şirvan iqtisadi rayonlarından olan respondentlər, aşağı gəlir qrupunu təmsil edənlər, evdar qadınlar, təqaüdçülər, ümumi orta təhsillilər, qəsəbədə yaşayanlar, yuxarı yaş qrupunu təmsil edənlər arasında bu suala cavab verməkdə çətinlik çəkənlər nisbətən üstünlük təşkil edir.

❖ “Prezidentin təşəbbüsü və nəzarəti altında işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma tədbirləri gözləntilərimi tam doğruldur” deyənlərin 92.8%-nin işğaldan azad edilmiş ərazilərin, Qarabağın yaşıl enerji zonasına çevrilməsinə münasibəti çox yaxşıdır.

Sorğu çərçivəsində məlum olur ki, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri barədə repondentlərin 37.4%-i çox, 53.0%-i isə əsasən məlumatlıdır. Respondentlərin 5.3%-nin bu barədə heç bir məlumatı yoxdur.

❖ Daha detallı təhlil etsək, nisbətən yuxarı yaş qrupunu təmsil edənlər, şəhərdə yaşayanlar, ali təhsillilər, dövlət sektorunda işləyənlər, yüksək gəlir qrupunu təmsil edənlər, Qazax-Tovuz və Şəki-Zaqatala iqtisadi rayonlarından olan respondentlər bu barədə çox məlumatlıdırlar.

❖ Aşağı yaş qrupunu təmsil edənlər, kənddə yaşayanlar, texniki və ya peşə təhsillilər, ali təhsillilər, qadınlar, işsiz olub hal-hazırda iş axtaranlar, tələbələr, nisbətən yüksək gəlir qrupunu təmsil edənlər, Gəncə-Daşkəsən, Quba-Xaçmaz, Qarabağ və Mərkəzi Aran iqtisadi rayonlarından olan respondentlər isə “əsasən məlumatlıyam” cavab variantına daha çox üstünlük veriblər.

❖ Gənclərin 7.5%-i, nisbətən yaşlıların 6.1%-i, texniki və ya peşə təhsillilərin 5.2%-i, özəl sektorda işləyənlərin 6.9%-i, tələbələrin 9.7%-i, yüksək gəlir qrupunu təmsil edənlərin 6.7%-i “əsasən məlumatım yoxdur” cavab variantını seçiblər.

❖ Yuxarı yaş qrupunu təmsil edənlər, qəsəbədə yaşayanlar, tam orta təhsillilər, qadınlar, dövlət sektorunda çalışanlar, təqaüdçülər, aşağı gəlir qrupunu təmsil edənlər isə “heç məlumatım yoxdur” variantını seçiblər.

❖ Eyni qaydada Dağlıq Şirvan, Quba-Xaçmaz iqtisadi rayonlarından olan respondentlər “əsasən məlumatım yoxdur”, Bakı və Dağlıq Şirvan iqtisadi rayonlarından olan respondentlər



isə “heç məlumatım yoxdur” variantını seçiblər.

❖ Təqaüdçülərin 1.3%-i, yaşlı nəslin nümayəndələrinin 2.0%-i, Abşeron-Xızı iqtisadi rayonundan olan respondentlərin 3.0%-i bu suala cavab verməkdə çətinlik çəkiblər.

❖ İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri barədə tam məlumatlı olan repondentlərin 53.0%-i yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanacağına və diplomatik əlaqələrin qurulacağına inanır.

## 2.2. İşğaldan azad edilmiş ərazilərdə “yaşıl enerji” zonasının yaradılması

Prezidentin daima diqqətdə saxladığı məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərdə “yaşıl enerji” zonasının yaradılmasıdır. “Yaşıl enerji” zonası layihəsinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında reallaşdırılmasını potensial imkanlarla bərabər, digər amillər də şərtləndirir. Belə ki, bu gün dünyanın ən qabaqcıl texnologiyaları alternativ enerjidən istifadənin stimullaşdırılmasına və ekoloji tarazlığın təmin edilməsinə yönəldiyindən, adları çəkilən iqtisadi rayonlarda bərpa-yenidənqurma işlərində bu istiqamət əsas götürülür.

Ümumiyyətlə, enerji dəyər zənciri mərhələlərində ekoloji təmiz, enerjisəmərəli, müasir və innovativ texnologiyaların tətbiqi də nəzərdə tutulur. Prezidentin “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” 2021-ci il 3 may tarixli sərəncamının icrası müvafiq sahədə görülən işlərə geniş imkanlar yaradır.

Azad edilmiş ərazilərin malik olduğu enerji resursları və enerji sektorunun bərpası istiqamətində aparılan intensiv işlər bunu deməyə əsas verir. 2021-ci ildə azad edilmiş torpaqlarda “Güləbird”, “Suqovuşan-1”, “Suqovuşan-2”, Kəlbəcərdə 4 su elektrik stansiyası yenidən qurulub, 2022-ci ildə isə daha 5 su elektrik stansiyasının inşası nəzərdə tutulur.

Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərdə “yaşıl enerji” zonası 10 min kvadratkilometr ərazini əhatə edir. Bura daxil olan bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı isə Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Aparılan təhlillərə əsasən, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpa olunan külək və günəş-elektrik enerjisinin istehsalı mümkündür. Regionun Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas çaylarının və digər kiçik çayların da böyük hidroenerji potensialı var. Həmçinin ilkin təhlillərə əsasən, Kəlbəcərdə günlük 3093 kubmetr, Şuşada isə günlük 412 kubmetr termal su ehtiyatlarının mövcud olması ehtimal edilir.

Cari sorğunun nəticələrinin təhlili də onu göstərir ki, işğaldan azad edilmiş ərazilərin, Qarabağın yaşıl enerji zonasına çevrilməsini respondentlərin mütləq əksəriyyəti yüksək qiymətləndirib (88.2% “çox yaxşı”, 7.5% “əsasən yaxşı”). Respondentlərin 3.3%-nin bununla bağlı məlumati yoxdur.

❖ Sorğu nəticələrinin təhlilinə əsasən işğaldan azad edilmiş ərazilərin, Qarabağın yaşıl enerji zonasına çevrilməsini “çox yaxşı” qiymətləndirənlər yuxarı yaş qrupunu təmsil edənlər, şəhərdə yaşayanlar, texniki və ya peşə təhsillilər, dövlət sektorunda çalışanlar, orta gəlir qrupunu təmsil edənlər, Qazax-Tovuz və Qarabağ iqtisadi rayonlarından olan respondentlər olublar.

❖ “Əsasən yaxşı” cavab variantını seçənlərə isə aşağı yaş qrupunu təmsil edənlər, qəsəbədə yaşayanlar, ümumi orta təhsillilər, işi olmayıb hal-hazırda iş axtarmayanlar, tələbələr, yüksək gəliri olanlar, Abşeron-Xızı iqtisadi rayonundan olan respondentlər arasında nisbətən daha çox rast gəlinir.

❖ Yuxarı yaş qrupunu təmsil edənlərın, təqaüdçülərin, aşağı gəlir qrupunua aid olanların, Dağlıq Şirvan iqtisadi rayonundan olan respondentlərin bu barədə məlumatlılıq səviyyəsi nisbətən aşağıdır.

❖ İşsiz olub, hal-hazırda iş axtarmayanlar və Lənkəran-Astara iqtisadi rayonundan olan respondentlər arasında bu suala cavab verməkdə çətinlik çəkənlər nibətən çoxdur.

# III BÖLMƏ.

# POSTMÜHARİBƏ DÖVRÜNDƏ PREZİDENTİN SÜLH GÜNDƏLİYİ

### 3.1. Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına və diplomatik əlaqələrin qurulmasına ictimai münasibət

Prezident postmüharibə dövründə yürütdüyü çevik xarici siyasət və diplomatiya nəticəsində regionda sabitliyə və genişmiqyaslı iqtisadi əməkdaşlığa xidmət edən sülh gündəliyinin region dövlətləri, həm də bu prosesdə maraqlı tərəf kimi çıxış edən beynəlxalq təşkilatlar (məsələn, Aİ) tərəfindən qəbul edilməsinə nail olub. Ümumiyyətlə, Prezidentin postmüharibə dövründə beynəlxalq təşkilatların, eləcə də dövlətlərin rəhbər şəxsləri, nümayəndə heyətləri ilə görüşləri, habelə xarici media qurumlarına müsahibələri sülh gündəliyinin tərkib hissəsini təşkil edib.

İrəvandan fərqli olaraq, rəsmi Bakı danışıqların hansısa qlobal güc mərkəzinin inhisarına alınmasında, sülhyaratma prosesində üstün tərəf kimi çıxış etməsində maraqlı deyil və bunu yolverilməz hesab edir. Hal-hazırda iki ölkə arasında danışıqlar prosesi həm Brüssel, həm də Moskvanın vasitəçiliyi əsasında aparılsa da, proses ümumən rəsmi Bakının önə çəkdiyi prinsip və meyarlara söykənir: Ermənistan və Azərbaycanın biri-birinin ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması, sərhədlərin delimitasiya və demarkasiyası, kommunikasiyaların açılması və iqtisadi əlaqələrin bərpası.

Son vaxtlar Aİ Şurası Prezidentinin vasitəçiliyi ilə keçirilən görüşlər Azərbaycanın maraqlarına uyğun və bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafının təmin olunması istiqamətində atılmış növbəti önəmli addım oldu. Ən mühümü də odur ki, sülh razılaşmasının əsas komponenti Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılmasıdır. Beş baza prinsipi bunlardır: dövlətlərin bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması; bir-birinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi; dövlətlərarası münasibətlərdə bir-birinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək; dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması; nəqliyyat və kommunikasiyaların açılması, müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

Aİ çərçivəsində bu görüşlərin əsas önəmli tərəfi Aİ-nin Azərbaycanın yaratdığı yeni reallıqları bölüşməsidir. Bunu Aİ Şurası prezidentinin keçirilmiş üçtərəfli görüşlərdən sonra verdiyi bəyanatlarda Ermənistanın “status”la bağlı iddialarına yer verməməsi və artıq Azərbaycanın güc yolu ilə həll etdiyi problemin yoluna qoyulmasında bircə addım belə ata bilməyən ATƏT-in Minsk qrupuna istinad etməməsi də təsdiq edir. O cümlədən bəyanatlarda “Dağlıq Qarabağ münaqişəsi” ifadəsinə də rast gəlinmir. Bütün bunlar onu göstərir ki, Aİ 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edir və öz mövqeyində buna əsaslanır. Həmçinin münaqişə həll olunduğuna görə keçmişin qalığı olan Minsk qrupu artıq lazımsız təsisata çevrilib.

Onu da qeyd edək ki, Aİ İlham Əliyevin regional liderliyini qəbul edir, Azərbaycan Prezidenti ilə yaxın təmasları Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasında mühüm amil kimi görür. Bu amil o cümlədən Azərbaycanla Aİ arasında münasibətlərin yeni inkişaf səviyyəsinə yüksəlməsi, Aİ-nin enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın rolunun daha da artması, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində müvafiq mexanizmin formalaşması, sülh müqaviləsi, sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması və digər məsələlərin həlli istiqamətində əməli addımlar atılması üçün mühüm şərtdir.

Bu amilləri nəzərə alıb respondentlərdən

**Yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanacağına və diplomatik əlaqələrin qurulacağına nə dərəcədə inanırsınız?**




Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına münasibət soruşulub. Sorğunun nəticələrinə əsasən, yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanacağına və diplomatik əlaqələrin qurulacağına respondentlərin 37.2%-i çox inandığını, 28.0%-i isə əsasən inandığını bildirib. Rəyi soruşulanların 26.3%-i isə iki ölkə arasında sülh müqaviləsinin imzalanacağına və diplomatik əlaqələrin qurulacağına heç inanmır.

❖ Sorğu nəticələrinin təhlili belə bir mənzərəni ortaya qoyur: Yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanacağına və diplomatik əlaqələrin qurulacağına ümumi seçmə içərisində aşağı yaş qrupunu təmsil edənlərə nisbətdə yuxarı yaş qrupunu təmsil edənlər daha çox inanır.

❖ Bu suala cavabda respondentlərin yaşayış yerinə (şəhər, qəsəbə və kənd) görə elə bir ciddi fərq müşahidə edilmir.

❖ Tam orta təhsillilər, texniki və ya peşə təhsili olanlar, dövlət və özəl sektorda işləyənlər, nisbətən aşağı gəlir qrupunu təmsil edənlər, Qazax-Tovuz iqtisadi rayonundan olan respondentlər bu cavab variantına daha çox üstünlük veriblər.

❖ Ən aşağı göstərici Quba-Xaçmaz iqtisadi rayonu üzrə qeydə alınıb.

❖ Yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanacağına ümumi seçmə içərisində aşağı yaş qrupunu təmsil edənlər, şəhərdə yaşayanlar, ümumi orta təhsillilər, tam orta təhsillilər, işsiz olub, hal-hazırda iş axtaranlar və evdar qadınlar, aşağı gəlir qrupunu təmsil edənlər, Mil-Muğan, Dağlıq-Şirvan və Quba-Xaçmaz iqtisadi rayonlarından olan respondentlər heç inanmırlar.

### 3.2. Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşdırılmasına vasitəçilik edən ölkələrə/təşkilatlara münasibət

Ümumilikdə postmünaqişə dövründə Cənubi Qafqazda sabitlik, əməkdaşlıq və təhlükəsizlik mühitinin yaradılması, Ermənistan ilə Azərbaycan arasında normallaşma prosesi, o cümlədən kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası, qarşılıqlı etimadın qurulması, işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi, sülh sazişinin hazırlanması prosesinin başlanması istiqamətində bir sıra ölkələrin və beynəlxalq təşkilatların cəhdləri müşahidə edilir. Sorğu çərçivəsində respondentlər postmünaqişə dövründə Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşdırılmasında vasitəçi ölkə və yaxud təşkilat qismində əsasən Türkiyənin rolunu daha yüksək qiymətləndiriblər. Sonrakı yerləri Rusiya və Avropa İttifaqı bölüşür. ATƏT-in Minsk qrupunu rəyi soruşulanların cəmi 2.5%-i vasitəçi rolunda görür. Tərəflər arasında əlaqələrin birbaşa olmasını respondentlərin 4.4%-i dəstəkləyir.

❍ **Türkiyə** variantını seçənlər arasında ümumi seçmədə nisbətən yuxarı yaş qrupunu təmsil edənlər daha çox üstünlük təşkil edir. Qəsəbədə yaşayanlar, tam orta təhsillilər, təqaüdçülər, evdar qadınlar, dövlət sektorunda işləyənlər, aşağı və orta gəlir qrupunu təmsil edənlər da bu cavab variantını seçiblər

❍ İqtisadi rayonlara gəlincə ən yüksək göstərici Lənkəran-Astara, Mil-Muğan və Şir-




van-Salyanda, ən aşağı göstərici isə Qazax-Tovuzda qeydə alınıb.

❍ **Avropa İttifaqı** variantını yuxarı yaş qrupunu təmsil edənlər, şəhərdə yaşayanlar, ali təhsillilər, tələbələr, nisbətən yüksək gəlir qrupunu təmsil edənlər qeyd ediblər. Bu cavab variantı üzrə iqtisadi rayonlardan Qazax-Tovuz, Abşeron-Xızı ən yüksək, Qarabağ və Quba-Xaçmaz ən aşağı göstərici ilə seçiliblər.

❍ **Rusiya** variantını aşağı və yuxarı yaş qrupunu təmsil edənlər, kənddə yaşayanlar, ali təhsillilər, tələbələr, nisbətən yüksək gəlir qrupunu təmsil edənlər seçiblər. İqtisadi rayonlar arasında Qazax-Tovuz və Lənkəran-Astarada ən yüksək, Qarabağda ən aşağı göstərici qeydə alınıb.

❍ **3+3** formatı orta yaş qrupunu təmsil edənlər, kənddə yaşayanlar, ali təhsillilər, tələbələr və təqaüdçülər, yüksək gəlir qrupunu təmsil edənlər tərəfindən qeyd olunub. Lənkəran-Astara və Qazax-Tovuz iqtisadi rayonlarından olan respondentlər də bu cavab variantına üstünlük veriblər.

❍ Sorğunun nəticələri bir daha göstərir ki, 30 illik münaqişə dövründə danışıqlar prosesinə heç bir töhfə verə bilməyən və etibarını itirən **Minsk qrupuna** ictimai münasibət aşağıdır. Belə ki, yaş qrupundan, yaşadığı yerdən, gender mənsubiyyətindən, məşğuliyyətindən, təhsil səviyyəsindən, hansı iqtisadi rayona aid olmasında asılı olmayaraq ATƏT-in Minsk qrupuna sorğuda iştirak edənlərin mütləq əksəriyyəti mənfi münasibət sərgiləyiblər. Ümumilikdə bütün kateqoriyalar üzrə 2-5% arası nəticələr qeydə alınıb.

❍ **Tərəflər arasında əlaqələrin məhz birbaşa olmasını** nisbətən yuxarı yaş qrupunu təmsil edənlər, texniki və ya peşə təhsili olanlar və ali təhsillilər, işsiz olub, hal-hazırda iş axtarmayanlar və tələbələr, yüksək gəlir qrupunu təmsil edənlər, Quba-Xaçmaz və Dağlıq-Şirvan iqtisadi rayonlarından olan respondentlər qeyd ediblər.

Qeyd edək ki, təhsilsiz olanların 16.7%-i bu suala cavab verməkdə çətinlik çəkib.

❖ Əlavə edək ki, Prezidentin Rusiya Federasiyasına rəsmi səfəri və müttəfiqlik bəyannaməsinin imzalanmasını "çox əhəmiyyətli" hesab edənlərin 19.6%-i postmünaqişə dövründə Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşdırılmasında vasitəçi ölkə və yaxud təşkilat qismində Rusiyanı seçiblər.

❖ Yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanacağına və diplomatik əlaqələrin qurulacağına inananların 86.8%-i Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşdırılmasında vasitəçi ölkə və qurum kimi Türkiyəni, 11.2%-i Avropa İtifaqını, 16.7%-i isə Rusiyanı seçib.

# IV BÖLMƏ.

# PREZİDENTİN MÜXTƏLİF İSTİQAMƏTLƏRDƏ FƏALİYYƏTİNƏ MÜNASİBƏT

## 4.1. Prezidentin hərbi quruculuq, xarici siyasət, əhalinin mülki təhlükəsizliyi, sosial müdafiə, kadr islahatları sahələrində fəaliyyətinə münasibət

Prezidentin cari ilin ilk dörd ayı üzrə müxtəlif istiqamətlərdə fəaliyyətinə ictimai münasibət öyrənilib. Eyni zamanda həmin istiqamətlər üzrə aidiyyəti dövlət orqanlarının fəaliyyəti vətəndaş rəyində qiymətləndirilib.

Dövlət başçısının bütün istiqamətlər üzrə fəaliyyəti vətəndaş rəyində müsbət qiymətləndirilməklə ilk sıralarda 1) hərbi quruculuq, 2) xarici siyasət, 3) postmüharibə dövründə vətənpərvər, sağlam və intellektual gəncliyin yetişdirilməsi istiqamətində fəaliyyəti qərarlaşıb. Sorğu nəticələrinin təhlilinə əsasən hazırkı dövr üçün xüsusi aktuallıq kəsb edən bəzi fəaliyyət istiqamətləri üzrə qısa icmalı təqdim edirik.

### Hərbi quruculuq

Prezidentin hərbi quruculuq istiqamətində fəaliyyəti sorğuda əhatə olunan sahələr üzrə respondentlər tərəfindən ən yüksək qiymətləndirilən istiqamət olub. Müzəffər Ali Baş Komandanın tapşırığı və birbaşa nəzarəti altında postmüharibə dövründə hərbi quruculuq prosesləri davam etdirilib. Cari ilin ilk dörd ayı ərzində işğaldan azad edilmiş ərazilərdə çoxsaylı yeni hərbi hissələr və hərbi infrastruktur obyektləri istifadəyə verilib, silahlı qüvvələr tərəfindən 20-dən çox təlim, məşğələ və məşq tədbirləri həyata keçirilib. Azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin təminatı və döyüş hazırlığı səviyyəsinin yüksəldilməsinə daim yüksək diqqət göstərilib.

Sorğu nəticələrinin təhlili bu sahədə vətəndaşların rəyinin yüksək olduğunu təsdiqləyib. Prezidentin hərbi quruculuq sahəsində fəaliyyəti






respondentlərin 88.3%-i tərəfindən “çox yaxşı”, 10.5%-i tərəfindən “əsasən yaxşı” qiymətləndirilib. Ümumilikdə əks mövqedən çıxış edənlər sorğu iştirakçılarının cəmi 0.7%-ni, fikir bildirməkdə çətinlik çəkənlərin isə 0.6%-ni təşkil edib.

❖ Prezidentin hərbi quruculuq istiqamətində fəaliyyətinə ictimai münasibət ilə şəhid ailələrinə və müharibə iştirakçılarına qayğı və dəstək fəaliyyətindən razılıq arasında müsbət əlaqə qeydə alınıb.

❖ Prezidentin hərbi quruculuq istiqamətində fəaliyyətini “çox yaxşı” qiymətləndirən respondentlərin mütləq əksəriyyəti (93.4%-i) hərbi quruculuq sahəsində aidiyyəti dövlət orqanının fəaliyyətini çox səmərəli hesab etdiyini bildirib.

❖ Region müstəvisindən təhlil etdikdə, Qarabağ, Qazax-Tovuz, Şəki-Zaqatala, Dağlıq Şirvan və Şirvan-Salyan iqtisadi rayonları üzrə sorğuda iştirak edənlərin bütövlükdə hamısı Prezidentin hərbi quruculuq istiqamətində fəaliyyətini müsbət ("çox yaxşı" və ya "əsasən yaxşı" kimi) qiymətləndirib.

❖ Respondentlərin mənsub olduğu yaş qrupundan, təhsil və gəlir səviyyəsindən asılı olmayaraq hərbi quruculuq istiqamətində fəaliyyətinə müsbət münasibət qeydə alınıb.

❖ Bu sahədə aidiyyəti strukturlar tərəfindən aparılan məqsədyönlü fəaliyyətin nəticəsi kimi qeyd oluna bilər ki, sorğu iştirakçılarının cəmi 17.2%-i Prezidentdən gözləntiləri kimi ordu quruculuğunun daha da təkmilləşdirilməsi məsələsini ifadə edib.

### Xarici siyasət

Postmünaqişə dövründə Vətən müharibəsində əldə etdiyi qələbəni diplomatiya və xarici siyasət müstəvisinə daşıyan Azərbaycan regional və beynəlxalq arenada yeni geosiyasi konfiqurasiyanın yaranmasını nəzərə alaraq yeni təşəbbüslərlə çıxış etmiş, daha təmkinli, balanslı siyasət yeritməyə çalışmışdır.

Hesabat dövründə Azərbaycanın müxtəlif güc mərkəzlərindən bərabər məsafədə mövqe seçməsi, ikitərəfli münasibətlərdə bərabər hüquq, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiq qalması, eyni zamanda ikitərəfli əməkdaşlığın heç bir halda üçüncü tərəfi hədəfə almaması reallığı beynəlxalq aləmdə dövlətimizə və onun rəhbərinə olan loyal münasibətin formalaşmasını şərtləndirən əsas amillərdən olmuşdur.

Prezident İlham Əliyevin regional xarici siyasəti daha çox Cəbubi Qafqaz regionunda sülh, əməkdaşlıq və təhlükəsizlik mühitinin formalaşdırılmasına hədəflənmişdir. Bu hədəf, heç şübhəsiz, xarici siyasət fəaliyyətinin çeviklik əmsalının kəskin artımı hesabına reallaşır.

Ümumilikdə, hesabat dövründə dövlət başçısının xarici siyasət üzrə fəaliyyəti çoxşaxəli olmaqla, Azərbaycanın beynəlxalq münasibətlər sistemində yerinin möhkəmləndirilməsinə, postmüharibə dövründə prioritetlərin dəqiq müəyyənləşdirilməsinə yönəldilmişdir. Sorğu nəticələrinin təhlili bir daha təsdiq edir ki, respondentlərin əksəriyyəti Prezidentin xarici siyasət sahəsindəki fəaliyyətini izləyir və yüksək qiymətləndirir. Belə ki, rəyi soruşulanların 84.8%-i Prezidentin xarici siyasət sahəsindəki fəaliyyətini “çox yaxşı”, 13.8%-i isə “əsasən yaxşı” qiymətləndirib.

❖ Ümumiyyətlə, mənsub olduğu yaş qrupundan, yaşayış yerindən, gender mənsubiyyətindən, təhsil və gəlir səviyyəsindən asılı olmayaraq Prezidentin xarici siyasəti respondentlər tərəfindən yüksək qiymətləndirilib. Belə ki, nəticələrin təhlilinə əsasən, aşağı yaş qrupu ilə müqayisədə orta və yuxarı yaş qruplarını təmsil edən respondentlər Prezidentin xarici siyasətini daha yüksək qiymətləndiriblər.

❖ İqtisadi rayonlara gəlincə, ən yüksək göstərici Bakı, Qazax-Tovuz, Lənkəran-Astara və Qarabağ iqtisadi rayonlarında, nisbətən aşağı göstərici isə Dağlıq-Şirvan, Quba-Xaçmaz və






Mil-Muğan iqtisadi rayonlarında müşahidə edilib.

Cari sorğunun və 2021-ci ilin aprel və dekabr aylarında keçirilmiş sorğuların nəticələrinin müqayisəli təhlili göstərir ki, Prezidentin xarici siyasət istiqamətindəki fəaliyyəti vətəndaş rəyində mütləq üstünlüklə dəstəklənir. Belə ki, 2021-ci ilin aprel ayında Prezidentin xarici siyasət istiqamətindəki fəaliyyəti müxtəlif dərəcələrdə "yaxşı" (69.4% "çox yaxşı", 22.0% "əsasən yaxşı") olduğu halda, 2021-ci ilin dekabr ayında bu göstəricilər 74.2% "çox yaxşı", 20.1% "əsasən yaxşı" olub. Göründüyü kimi, bu istiqamətdə artım dinamikası müşahidə edilir.

### Prezidentin xarici ölkələrə səfərləri

Cari dövr ərzində Prezidentin xarici ölkələrə səfərlərinin ümumi mənzərəsi onu deməyə əsas verir ki, Azərbaycan postmünaqişə dövründə çoxtərəfli (multilateral) xarici siyasət kursunu uğurla davam etdirmişdir. Regional siyasətin güclü və müstəqil subyekti, regionun iqtisadi mərkəzi olan Azərbaycan həm beynəlxalq təşkilatlar (BMT, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, İƏT və s.), həm də tərəfdaş və qonşu ölkələrlə müxtəlif əməkdaşlıq platformalarında əlaqələrini yeni dövrün çağırışları və reallıqlarını nəzərə alaraq qurmağa çalışmışdır. Xüsusilə Qoşulmama Hərəkatının (QH) sədri kimi dünyada iqtisadi gücündən və əhalisinin sayından asılı olmayaraq hər bir dövlətlə yaxşı münasibətlərin saxlanılmasının zəruriliyini müdafiə etməsi, QH adından bir çox ümumbəşəri məsələlərlə bağlı təşəbbüslərlə çıxış etməsi, QH-nin institusional əsaslarının möhkəmlənməsi üçün (Parlament Şəbəkəsi, Nyu York ofisi) təkliflər irəli sürməsi, QH vasitəsilə təkcə dövlətlər deyil, eyni zamanda xalqlar arasında da həmrəyliyin gücləndirilməsini dəstəkləməsi diplomatiyamızın postmünaqişə dövründə keyfiyyətcə yeni, qlobal miqyasa çıxdığını göstərir. Azərbaycanın uğurlu sədrliyinin nəticəsidir ki, QH üzvləri tərəfindən Azərbaycanın sədrlik müddəti uzadılmışdır.

Prezidentin iki və çoxtərəfli platformalarda milli maraqların müdafiəsi baxımından prinsipial mövqeyi, regionda qalıcı sülh istiqamətində yüksək fəaliyyəti və Azərbaycanı regionun müstəqil subyektinə çevirən düşünülmüş xarici siyasəti ictimai rəydə də müsbət qarşılanır. Belə ki, cari sorğuda respondentlərdən hesabat dövründə Prezidentin Brüsselə işgüzar səfəri zamanı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşünün (06 aprel 2022), Türkiyəyə işgüzar səfəri və R.T.Ərdoğanla görüşünün (10 mart 2022), Rusiya Federasiyasına rəsmi səfəri və müttəfiqlik bəyannaməsinin imzalanmasının (21 fevral 2022), Ukraynaya işgüzar səfəri və birgə sənədlərin imzalanmasının (14 yanvar 2022) ölkəmiz üçün əhəmiyyəti soruşulub.

❖ Hesabat dövründə Prezidentin xarici ölkələrə səfərlərinin ictimai rəydə dəyərləndirilməsi onu göstərir ki, respondentlər daha çox Prezidentin 10 mart 2022-ci il tarixində Türkiyəyə səfəri və R.T.Ərdoğanla görüşü haqqında məlumatlıdırlar. Respondentlər bu səfərin əhəmiyyətini daha yüksək qiymətləndiriblər. Bu nəticəni müharibə və müharibədən sonra iki qardaş ölkə arasında yaranmış münasibətlərin yüksək səviyyəsi ilə də izah etmək olar.

❖ Sorğuda ən az məlumatlılıq səviyyəsi isə Prezidentin 06 aprel 2022-ci il tarixində etdiyi

Brüssel səfəri və Aİ Şurasının Prezidenti və Ermənistan Baş naziri ilə üçtərəfli görüşü ilə bağlı müşahidə edilib. Rəyi soruşulanların 17.1%-nin bu səfər haqqında heç bir məlumatı olmayıb.

Sorğunun nəticələrinin daha detallı təhlili bu qənaətə gəlməyə əsas verir ki, əhalinin yaşlı təbəqəsi gənclərə nisbətən Prezidentin xarici siyasətini daha yaxından izləyir. Belə ki, **Prezidentin Brüssel səfəri və Aİ Şurasının Prezidenti və Ermənistan Baş naziri ilə üçtərəfli görüşü**nü gənc nəsli təmsil edən respondentlərin 51.6%-i "çox əhəmiyyətli", 22.6%-i "əsasən əhəmiyyətli" qiymətləndirdiyi halda, rəyi sruşulanların 21.5%-nin bu səfər haqqında heç bir məlumatı olmayıb.

Yaşlı nəslə gəlincə, yaşı 66 və ondan yuxarı olan respondentlərin 71.3%-i Prezidentin bu səfərini "çox əhəmiyyətli", 11.9%-i isə "əsasən əhəmiyyətli" qiymətləndirib. "Məlumatım yoxdur" variantını seçənlər isə ümumi seçmənin 13.9%-ni təşkil edib.

Bu səfərin heç bir əhəmiyyətinin olmadığını düşünənlər yaş bölgüsünə görə ən çox 36-45 yaşarası müşahidə edilib. Yəni bu yaş qrupuna daxil olan respondentlərin cəmi 8.0%-i bu səfərin heç bir əhəmiyyətinin olmadığını düşünür. Abşeron-Xızı iqtisadi raynunda yaşayan respondentlərin 7.6%-i də bu fikri bölüşüb.

Bundan başqa, qəsəbədə yaşayanlara nisbətdə şəhər və kənd ərazi vahidlərində yaşayanlar, ali təhsillilər, qadınlara nisbətdə kişilər, dövlət sektorunda çalışanlar, təqaüdçülər, əhalinin məşğul qismi, yüksək gəlir qrupunu təmsil edənlər, Qazax-Tovuz və Qarabağ iqtisadi ra-



yonlarında yaşayanlar bu səfəri "çox əhəmiyyətli" hesab ediblər.

Maraqlıdır ki, digər ərazi vahidlərinə nisbətdə şəhərdə yaşayanlar, tələbələr, evdar qadınlar, işsiz olub hal-hazırda iş axtarmayanlar, Gəncə-Daşkəsən iqtisadi rayonunda yaşayanlar bu səfər haqqında daha az məlumatlıdırlar.

❖ Onu da əlavə edək ki, Prezidentin Brüssel səfəri və Aİ Şurasının Prezidenti və Ermənistan Baş naziri ilə üçtərəfli görüşünü "çox əhəmiyyətli" hesab edənlərin 87%-i Türkiyəni, 11%-i Avropa İttifaqını, 17.8%-i Rusiyanı Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşdırılmasında vasitəçi ölkə və yaxud təşkilat qismində görürlər.

**Prezidentin Türkiyəyə işgüzar səfəri və R.T.Ərdoğanla görüşü**nü (10 mart görüşü nəzərdə tutulur) aşağı yaş qrupunu təmsil edən respondentlərin 68.8%-i "çox əhəmiyyətli", 20.4%-i "əsasən əhəmiyyətli" hesab edib. Həmçinin "çox əhəmiyyətli" cavab versiyasını yaşlı nəsil, kənd inzibati ərazi vahidində yaşayanlara nisbətdə şəhər və qəsəbədə yaşayanlar, ümumi orta təhsillilərə nisbətdə ali təhsillilər, Bakı və Qazax-Tovuz iqtisadi rayonlarını təmsil edən respondentlər daha çox seçiblər.

Orta nəslin nümayəndələri, kənddə yaşayanlar, texniki və ya peşə təhsillilər, işsiz olub hal-hazırda iş axtarmayanlar, evdar qadınlar, aşağı gəlir qrupunu təmsil edənlər, Quba-Xaçmaz və Şəki-Zaqatala iqtisadi rayonlarını təmsil edən respondentlər bu səfər haqqında daha az məlumatlıdırlar.

**Prezidentin Rusiya Federasiyasına rəsmi səfəri və müttəfiqlik bəyannaməsinin imzalanması**nı aşağı yaş qrupunu təmsil edən respondentlərin 46.2%-i "çox əhəmiyyətli" (29.0%-i isə "əsasən əhəmiyyətli") hesab etdiyi halda yuxarı yaş qrupunu təmsil edənlərin bu cavab variantına üstünlük vermə dərəcəsi 65.3% olub.

Bundan başqa, qəsəbədə yaşayan respondentlər şəhər və kənd ərazi vahidlərində yaşayan respondentlərə nisbətdə, ali təhsillilər, qadınlara nisbətdə kişilər, təqaüdçülər tələbələr və evdar qadınlara nisbətdə, həmçinin Lənkəran-Astara, Mil-Muğan və Şirvan-Salyan iqtisadi rayonlarından olan respondenlər bu səfəri daha çox əhəmiyyətli hesab ediblər.

Eləcə də gənclərin 8.6%-i, şəhərdə yaşayan respondentlərin 11.1%-i bu fikirdədirlər ki, bu səfərin heç bir əhəmiyyəti yoxdur

Nisbətən üstün göstəricilərlə gənclərin 12.9%-nin, kənddə yaşayanların 15.2%-nin bu səfər haqqında heç bir məlumatı yoxdur.

❖ Onu da əlavə edək ki, Prezidentin xarici siyasət sahəsindəki fəaliyyətini "çox yaxşı" qiymətləndirənlərin 62.6%-i Prezidentin Rusiya Federasiyasına rəsmi səfəri və müttəfiqlik bəyannaməsinin imzalanmasını "çox əhəmiyyətli" hesab ediblər.

**Prezidentin Ukraynaya işgüzar səfəri və birgə sənədlərin imzalanması**nı yuxarı yaş qrupunu təmsil edənlər, qəsəbə və kənd ərazi vahidlərində yaşayan respondentlərə nisbətdə şəhəri təmsil edən respondentlər, ali təhsillilər, qadınlara nisbətdə kişilər, evdar qadınlar və işləməyib hal-hazırda iş axtarmayanlara nisbətdə özəl sektorda işləyənlər, təqaüdçülər, Qazax-Tovuz, Qarabağ və Bakı iqtisadi rayonlarından olan respondentlər "çox əhəmiyyətli" hesab edib.

36-45 yaş qrupunu təmsil edən respondentlərin 20.4%-nin, həmçinin evdar qadınların 26.9%-nin, işləməyib hal-hazırda iş axtarmayanların 26.7%-nin, aşağı gəlir qrupunu təmsil edənlərin 18.3%-nin, həmçinin Lənkəran-Astara, Şəki-Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonlarından olan respondentlərin bu səfər haqqında heç bir məlumatı yoxdur.

❖ Prezidentin xarici siyasət sahəsindəki fəaliyyətini "çox yaxşı" qiymətləndirənlərin 64.2%-i Prezidentin Ukraynaya işgüzar səfəri və birgə sənədlərin imzalanmasını "çox əhəmiyyətli" hesab ediblər.

### Rusiya-Ukrayna müharibəsi nəticəsində yaranan geosiyasi vəziyyətin ölkəmizə mümkün təsirləri

Əgər son iki ildə dünya ölkələrinin siyasi-iqtisadi gündəmini kiçik (lokal) münaqişələri kölgədə qoyan koronavirus (COVID-19) pandemiyası ilə mübarizə daha çox məşğul edirdisə, 2022-ci ilin fevral ayından etibarən başlayan Rusiya-Ukrayna müharibəsi özlüyündə bir çox maraqlı tərəfləri qarşı-qarşıya qoymaqla həm də bir sıra problemləri gündəmə gətirib. Siyasi ekspertlər davam edən bu müharibənin nəticələri kimi dünyanın yenidən dizayn olunacağını müzakirə müstəvisinə çıxarsalar da, görünən odur ki onun mümkün nəticələri əksər ölkələrə öz siyasi-iqtisadi təsirlərini göstərəcək. Bütün bunları nəzərə alıb cari sorğuda ölkə əhalisindən Rusiya-Ukrayna müharibəsi nəticəsində yaranan geosiyasi vəziyyətin ölkəmizə mümkün təsirləri ilə bağlı sual ünvanlanıb. Sorğunun nəticələrinin təhlili göstərir ki, bu məsələ ilə bağlı respon-

dentlər arasında fərqli mövqelər müşahidə edilir. Belə ki, məsələyə müsbət mövqedən yanaşan respondentlərin fikrincə, Rusiya-Ukrayna müharibəsi nəticəsində yaranan geosiyasi vəziyyət Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu daha da artıracaq, Cənub Qaz Dəhlizinin əhəmiyyəti artacaq (37.7%), Azərbaycanın şərq-qərb arasında tranzit imkanları, Şərqi Zəngəzur (Zəngəzur-İran-Naxçıvan) və Zəngəzur dəhlizinin rolu daha da genişlənəcək (38.7%), Rusiyanın Qərblə siyasi-iqtisadi əlaqələrində Azərbaycana vasitəçilik imkanları yaradacaq (22.5%) və nəhayət, qeyri-stabil beynəlxalq nizam Azərbaycana Ermənistan üzərində yeni üstünlüklər qazandıracaq (25.5%).

Lakin repondentlərin müəyyən hissəsi bu fikirdədir ki, Rusiya-Ukrayna müharibəsi nəticəsində yaranan geosiyasi vəziyyət Azərbaycanın ərzaq təhlükəsizliyinə təhdidlər yaradacaq (29.5%), Azərbaycana məcburi köçkünlərin gəlməsinə səbəb olacaq (25.8%), Rusiyanın postsovet ölkələri üzərində təsirlərini artıracaq (10.4%).

Rəyi soruşulanların 23.7%-i isə bu fikri bölüşür ki, Azərbaycan hər iki tərəflə neytral münasibətləri saxlamaqda çətinlik çəkəcək. Respondentlərin 5.6%-i bu suala cavab verməkdə çətinlik çəkib.

**“Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu daha da yüksələcək, Cənub Qaz Dəhlizinin əhəmiyyəti artacaq”** cavab variantına ümumi seçmədə yuxarı yaş qrupunu təmsil edənlər, şəhər və kənd ərazi vahidlərində yaşayanlar, ali təhsillilər, təqaüdçülər, yüksək gəlir qrupunu təmsil edənlər, Dağlıq Şirvan, Şirvan-Salyan iqtisadi rayonlarından olan respondentlər daha çox üstünlük veriblər.

İqtisadi rayonlar üzrə ən aşağı göstərici Qarabağ, Quba-Xaçmaz və Abşeron-Xızıda müşahidə edilib.

**“Azərbaycanın şərq-qərb arasında tranzit imkanlarını, Şərqi Zəngəzur (Zəngəzur-İran-Naxçıvan) və Zəngəzur dəhlizinin rolunu daha da genişləndirəcək”** cavab variantını aşağı yaş qrupunu təmsil edənlərə nisbətdə yuxarı yaş qrupunu təmsil edənlər, şəhərdə yaşayanlar, özəl sektorda çalışanlar və təqaüdçülər, yüksək gəlir qrupunu təmsil edənlər, Lənkəran-Astara və Şirvan-Salyan iqtisadi rayonlarından olan respondentlər daha çox seçiblər.

İqtisadi rayonlar üzrə nisbətən aşağı göstərici Qazax-Tovuzda qeydə alınıb.

**“Rusiyanın Qərblə siyasi-iqtisadi əlaqələrində Azərbaycana vasitəçilik imkanları yaradacaq”** variantını daha çox aşağı və orta yaş qrupuna aid olan respondentlərə nisbətdə yuxarı yaş qrupunu təmsil edənlər, kənddə yaşayanlar, texniki və ya peşə təhsillilər, dövlət sektorunda çalışanlar və təqaüdçülər, Şirvan-Salyan, Lənkəran-Astara və Şəki-Zaqatala iqtisadi rayonlarından olan respondentlər seçiblər.

Ən aşağı göstərici Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonları üzrə müşahidə edilib. Gender və gəlir səviyyəsində ciddi fərq müşahidə edilməyib.

**“Qeyri-stabil beynəlxalq nizam Azərbaycana Ermənistan üzərində yeni üstünlüklər qazandıracaq”** cavab variantı ilə aşağı yaş qrupuna nisbətdə yuxarı yaş qrupunu təmsil edənlər, kənddə yaşayanlar, texniki və ya peşə təhsillilər, təqaüdçülər, Şirvan-Salyan və Lənkəran-Astara iqtisadi rayonlarından olan respondentlər daha çox razılıq ifadə ediblər.

Ən aşağı göstərici Qazax-Tovuz və Abşeron-Xızı iqtisadi rayonlarında müşahidə edilib. Gəlir səviyyəsinə görə ciddi fərq müşahidə edilməyib.

**“Azərbaycanın ərzaq təhlükəsizliyinə təhdidlər yaradacaq”** cavab variantı üzrə yaş bölgüsünə görə ciddi bir fərq müşahidə edilməyib. Bununla yanaşı, kənddə yaşayanlar, işsiz olub hal-hazırda iş axtaranlar, təqaüdçülər və evdar qadınlar, aşağı gəlir qrupunu təmsil edənlər, Quba-Xaçmaz, Lənkəran-Astara və Şirvan-Salyan iqtisadi rayonlarından olan respondentlər daha çox razılıq bildiriblər.

Ən aşağı göstərici Abşeron-Xızı, Mərkəzi Aran və Bakı iqtisadi rayonlarında müşahidə edilib.

**“Azərbaycana məcburi köçkünlərin gəlməsinə səbəb olacaq”** cavab variantı ilə aşağı yaş qrupuna nisbətdə yuxarı yaş qrupunu təmsil edənlər, şəhər əhalisinə nisbətdə qəsəbə ərazi vahidində yaşayanlar, təqaüdçülər, yüksək gəlir qrupunu təmsil edənlər, Lənkəran-Astara və Qazax-Tovuz iqtisadi rayonlarından olan respondentlər daha çox razılıq ifadə ediblər.

Ən aşağı göstərici Abşeron-Xızı və Qarabağ iqtisadi rayonlarında müşahidə edilib.

**“Rusiyanın postsovet ölkələri üzərində təsirlərini artıracaq”** cavab variantını aşağı və yuxarı yaş qrupunu təmsil edənlər, kənddə yaşayanlar, ali təhsillilər, tələbələr və təqaüdçülər, yüksək gəlir qrupunu təmsil edənlər, Mil-Muğan və Lənkəran-Astara iqtisadi rayonlarından olan respondentlər daha çox seçiblər.

Gender səviyyəsində ciddi fərq müşahidə




edilmir.

**"Rusiyanın postsovet ölkələri üzərində təsirlərini azaldacaq"** cavab variantı ilə aşağı yaş qrupuna nisbətdə yuxarı yaş qrupunu təmsil edənlər, şəhərdə yaşayanlar, ali təhsillilər, dövlət və özəl sektorda işləyənlər, yüksək gəlir qrupunu təmsil edənlər, Şəki-Zaqatala və Şirvan-Salyan iqtisadi rayonlarından olan respondentlər daha çox razıdırlar.

Razılıq səviyyəsinə görə ən aşağı göstərici Qarabağ iqtisadi rayonu üzrə qeydə alınıb.

**"Azərbaycan hər iki tərəflə neytral münasibətlərdə çətinlik çəkəcək"** cavab variantını digər yaş qrupları ilə müqayisədə aşağı yaş qrupunu təmsil edənlər, tələbələr, yüksək gəlir qrupunu təmsil edənlər, Qazax-Tovuz və Şirvan-Salyan iqtisadi rayonlarından olan respondentlər daha çox seçiblər. Ən aşağı göstərici Gəncə-Daşkəsən iqtisadi rayonunda qeydə alınıb.

Respondentlərin yaşayış yeri və təhsil səviyyəsinə görə fikrə münasibətdə ciddi bir fərq

müşahidə edilmir.

İbtidai təhsillilərin 16.7%-i, hal-hazırda işsiz olub iş axtarmayanların 13.3%-i, evdar qadınların 9.7%-i, aşağı gəlir qrupunu təmsil edənlərin 9.2%-i, Gəncə-Daşkəsən və Qarabağ iqtisadi rayonlarından olan respondentlər, ümumiyyətlə, bu suala cavab verməkdə çətinlik çəkiblər.

**Gənclər siyasəti**

Azərbaycan müstəqillik əldə etdikdən sonra onun inkişafının əsas drayverlərindən biri də insan kapitalının inkişaf etdirilməsi olub. Xüsusilə Prezidentin yürütdüyü gənclər siyasəti üç əsas gözlənti üzərində qurulub: Azərbaycan gəncliyi fiziki cəhətdən sağlam olmalı, vətənpərvərliyi, milli mənəvi dəyərlərə sədaqəti ilə seçilməli, biliklərə yiyələnməlidir. 44 günlük Vətən müharibəsi bu gözləntilərin effektivliyini sübut etdi: Azərbaycan gəncliyi vətənpərvərlik, fədakarlıq hissinin yüksək səviyyəsini nümayiş etdirdi, sosial, etnik və dini mənsubiyyətindən asılı olmayaraq vahid məqsəd və vahid Lider – Azərbaycan Respublikasının Prezidenti ətrafında sıx birləşdi. Sorğu nəticələrinin təhlili də göstərir ki, Prezidentin postmüharibə dövründə də vətənpərvər, sağlam və intellektual gəncliyin yetişdirilməsi istiqamətində çağırışlarına ictimai münasibət yüksəkdir. Belə ki, respondentlərin 83.1%-i bu istiqamətdə fəaliyyəti "çox yaxşı", 14.5%-i isə "əsasən yaxşı" qiymətləndirib.

❖ Orta yaş qrupunu təmsil edənlər, ali təhsillilər, dövlət sektorunda işləyənlər, Qazax-Tovuz, Qarabağ və Mərkəzi Aran iqtisadi rayonlarından olan respondentlər "çox yaxşı" variantını seçiblər. Məskunlaşdığı yerə və gəlir səviyyəsinə görə ciddi bir fərq müşahidə edilmir.




❖ Gənclərin 23.7%-i, işləməyən və hazırda iş axtarmayanların 26.7%-i, evdar qadınların 22.4%-i, Gəncə-Daşkəsən iqtisadi rayonundan olan respondentlərin 22.9%-i və Quba-Xaçmaz iqtisadi rayonundan olan respondentlərin 22.7%-i "əsasən yaxşı" cavab variantına üstünlük veriblər.

❖ Bundan başqa, evdar qadınların 3.0%-i, aşağı gəlir qrupunu təmsil edənlərin 3.1%-i, Bakı iqtisadi rayonundan olan respondentlərin 3.0%-i "çox pis" cavab variantını seçiblər.

Bu kontekstdə onu da əlavə edək ki, Prezident İlham Əliyev cari ilin fevralın 2-də Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda çıxışında gənclərlə bağlı yeni çağırışlarını bildirib. Bu gün Prezidenti İlham Əliyevin həyata keçirdiyi gənclər siyasəti yeni inkişaf mərhələsi ərəfəsindədir, postmüharibə dövrünün tələb və çağırışları gənclər üçün yeni imkanlar açmaqdadır. Eyni zamanda, 44 günlük Vətən müharibəsindən sonra yaranmış geosiyasi və geoiqtisadi reallıqlar, ölkənin inkişaf perspektivləri, Azərbaycana yönəlik xarici maraq və təhdidlər dövlət siyasətinin təkmilləşdirilməsini, böyüməkdə olan nəslin dövlət və ümumxalq maraqlarının ödənilməsinə istiqamətləndirilməsini, onların destruktiv təsirlərə sosial-psixoloji müqavimətinin daha da gücləndirilməsini və s. tələb edir. Postmüharibə dövrü Azərbaycanın növbəti genişmiqyaslı quruculuq mərhələsidir. Azərbaycan gəncliyi Vətən torpaqlarını düşmən tapdağından azad etdiyi kimi, Qarabağ və Şərqi Zəngəzur ərazilərinin bərpası və abadlaşdırılmasında da fəal iştirak edir, vətənpərvərlik nümunəsi göstərir.

Qeyd edildiyi kimi, Prezidentin gənclər siyasətinin əsas istiqamətlərindən biri də intellektual gəncliyin formalaşdırılması, onlar üçün geniş imkanların yaradılmasıdır. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş xaricdə təhsil ənənəsi Prezident İlham Əliyev dövründə də uğurla davam etdirilib. "Qara qızıl"ın insan kapitalına çevrilməsi strategiyası təhsillə əhatənin və ona əlçatanlığın artmasına, bu çərçivədə gənclərin qabaqcıl xarici təhsilə cəlbinin müxtəlif proqramlarla dəstəklənməsinə mühüm imkanlar yaradıb. Gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədilə Prezident tərəfindən son 19 ildə bir sıra sərəncamlar imzalanıb, dövlət proqramları qəbul edilib. Prezidentin 22 fevral 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali

təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı" da bu ənənənin davam etdirilməsi deməkdir. Bundan başqa, Prezidentin tapşırığı ilə xaricdə ali təhsil almış tələbələrə ölkəmizin əmək bazarına giriş imkanını artırmaq, eyni zamanda, işəgötürənlərin işaxtaranlarla daha rahat şəkildə əlaqələndirilməsinə töhfə vermək məqsədilə ilə də bir sıra zəruri addımlar atılır.

### Sosial müdafiə

Sosial müdafiə istiqamətində siyasət ötən dövrlərdə olduğu kimi hazırkı mərhələdə də ümumi dövlət siyasətinin prioritetləri arasındadır. Dövlət başçısı tərəfindən imzalanan sənədlər əsasında cari ilin əvvəlindən növbəti islahat paketi çərçivəsində əmək haqqı, pensiya və digər sosial ödənişlərin artımını nəzərdə tutan sosial islahatlar icra olunub. Sözügedən sosial islahatlar paketi 3.4 milyon şəxsi əhatə edib. Bu çərçivədə minimum aylıq əmək haqqında, o cümlədən maaşları Vahid Tarif Cədvəli (VTC) üzrə müəyyən olunan şəxslərin, müəllimlərin, hərbi strukturlarda və hüquq-mühafizə orqanlarında çalışanların əmək haqqında orta hesabla 20 faiz artım həyata keçirilib.

Sosial rifahın yüksəldilməsi tədbirləri ilə bağlı rəsmi məlumatlara əsasən qeyd etmək olar ki, cari ilin ilk dörd ayı ərzində 25 mindən çox işsiz və işaxtaran şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub, 4.1 min nəfər özünüməşğulluq proqramına cəlb olunub.

Ümumiləşdirilərək təqdim edilən sosial müdafiə siyasətinin mövcud qlobal sosial-iqtisadi konyunktur və pandemiya şəraitində xüsusi




əhəmiyyəti qeyd oluna bilər. Beynəlxalq Əmək Təşkilatının məlumatına əsasən, dünyada 4 milyarddan artıq insanın sosial müdafiədən kənarda qaldığı qlobal sosial-iqtisadi zəmində, pandemiya və postmüharibə şəraitində ölkədə sosial müdafiə sisteminin əhatəliliyi və xidmətlərə əlçatanlığın artırılması bu istiqamətdə dövlət siyasətinin əsas konturlarını təşkil edir. Beynəlxalq Əmək Təşkilatının "Dünya Sosial Müdafiə Hesabatı"na (World Social Protection Report 2020-22) görə, təhlillər 2021-ci ildə 154 ölkədə, 2022-ci ildə 159 ölkədə bütövlükdə 6.6 milyard insanın, yəni dünya əhalisinin 85%-nin qənaət rejimində yaşayacağını göstərir.

Sorğu nəticələrinin təhlilinə əsasən, Prezidentin sosial müdafiə istiqamətində fəaliyyəti respondentlərin 63.8%-i tərəfindən "çox yaxşı", 28.5%-i tərəfindən "əsasən yaxşı" qiymətləndi-



rilib. Respondentlərin cəmi 3.1%-i “əsasən pis”, 3.6%-i “çox pis” cavab variantlarını qeyd edib. Mövqe bildirməkdə çətinlik çəkənlər 1.0% təşkil edib.

❖ Gəlir səviyyəsindən və cari il ərzində gəlirlərinin hansı istiqamətdə dəyişməsindən asılı olmayaraq respondentlər Prezidentin sosial müdafiə istiqamətində fəaliyyətini müsbət qiymətləndirib.

❖ Yuxarı yaş qruplarına doğru respondentlərin müsbət mövqeyində aşağı yaş qrupları ilə müqayisədə nisbi azalma qeydə alınıb.

❖ İqtisadi rayonlar üzrə nəzərdən keçirdikdə, sosial müdafiə istiqamətində fəaliyyət Qazax-Tovuz, Qarabağ, Şəki-Zaqatala iqtisadi rayonlarında daha müsbət, Quba-Xaçmaz, Şirvan-Salyan, Abşeron-Xızı iqtisadi rayonlarında nisbətən az müsbət qiymətləndirilib.

Sosial müdafiə istiqamətində fəaliyyət ayrı-ayrı dövrlərdə, eləcə də pandemiya və postmüharibə şəraitində xüsusi aktuallıq kəsb edib. Müqayisə üçün qeyd edək ki, Prezidentin sosial müdafiə istiqamətində fəaliyyətini “çox yaxşı” və “əsasən yaxşı” qiymətləndirənlər 2021-ci ilin aprel ayında keçirilən sorğular zamanı müvafiq olaraq 50.0% və 31.9%, noyabr-dekabr aylarında keçirilən sorğular zamanı müvafiq olaraq 53.9% və 32.3% təşkil edib. Cari sorğunun nəticələri üzrə bu göstəricilər 63.8% və 28.5% olub.

## Prezidentin şəhid ailələrinə və müharibə iştirakçılarına qayğı və dəstək fəaliyyəti

Postmüharibə dövründə müharibə iştirakçılarının, qazilərin və şəhid ailələrinin rifahının yüksəldilməsi, sosial və məişət ehtiyaclarının təmin olunması dövlətin sosial müdafiə siyasətinin prioriteti olub. Dövlət başçısının tapşırıqlarına əsasən müharibədə əmək qabiliyyətini itirən şəxslərə və şəhid ailələrinə, həssas qruplara xüsusi yanaşma tətbiq edilib. Belə ki, rəsmi məlumatlara əsasən postmüharibə dövründə 3.2 min, ümumilikdə isə ötən dövrdə 12.5 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib. Həmçinin ötən dövrdə 7.4 min müharibə əlili avtomobillə təmin edilib. Vətən müharibəsi şəhidlərinin ailə üzvləri olan 8 min şəxsə 16 min sosial ödəniş (Prezidentin təqaüdü, sosial müavinət, pensiya) təyin olunub.

Cari ilin birinci rübü üzrə 7 minədək şəxsə (ötən ilin müvafiq dövrünə görə 2.1 dəfə çox) əlillik və sosial ödənişlər nəzərdə tutulub, 3 min əlilliyi olan şəxsə 13.1 min reabilitasiya vasitəsi verilib, əlilliyi olan 6.9 mindən çox şəxsə sosial xidmətlər göstərilib.

Prezidentin müvafiq fərmanı ilə şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə yaradılan vahid əlaqələndirmə mərkəzlərində 26 min şəxsə sosial xidmətlər göstərilib, “Məşğulluq marafonu” çərçivəsində 2 minə yaxın şəxs işlə təmin olunub.

Prezidentin şəhid ailələrinə və müharibə iştirakçılarına qayğı və dəstək fəaliyyətinə ictimai münasibət rəy sorğusu əsasında öyrənilib. Sorğu nəticələri ötən dövr üzrə dinamikaya uyğun olaraq yüksək qiymətləndirməni özündə əks etdirib. Sorğuda iştirak edən vətəndaşların 76.9%-i dövlət başçısının sosial müdafiə üzrə fəaliyyətindən tam razı, 17.2%-i əsasən razı olduğunu bildirib. Sorğu iştirakçılarının cəmi



2.5%-i “əsasən razı deyiləm”, 2.7%-i “heç razı deyiləm” cavab variantlarını qeyd edib. Respondentlərin 0.7%-i fikir bildirməkdə çətinlik çəkib.

❖ Prezidentin sosial müdafiə fəaliyyətini “çox yaxşı” qiymətləndirən respondentlərin mütləq əksəriyyəti dövlət başçısının şəhid ailələrinə və müharibə iştirakçılarına qayğı və dəstək fəaliyyətindən də tam razı olduqlarını bildirib.

❖ Müharibə iştirakçılarına və şəhid ailələrinə qayğı və dəstək fəaliyyətinə ictimai münasibəti iqtisadi rayonlar üzrə nəzərdən keçirdikdə, Dağlıq Şirvan, Qarabağ və Şəki-Zaqatala iqtisadi rayonları daha çox müsbət, Quba-Xaçmaz, Bakı, Abşeron-Xızı iqtisadi rayonları daha az müsbət göstəricilərlə fərqlənib.

❖ Cari il ərzində gəlirlərinin artdığını bildirən respondentlərlə müqayisədə gəlirləri azalan respondentlər, kənd və qəsəbədə yaşayan respondentlərlə müqayisədə şəhərdə yaşayanlar nisbətən az müsbət qiymətləndirib.

❖ Prezidentin şəhid ailələrinə və müharibə iştirakçılarına qayğı və dəstək fəaliyyətindən çox razı olan respondentlərin 52.3%-i aidiyyəti dövlət orqanının sosial müdafiə üzrə fəaliyyətini “çox səmərəli”, 35.7%-i “qismən səmərəli”, 9.9%-i “səmərəsiz” qiymətləndirib. Respondentlərin 2.1%-i mövqe bildirməkdə çətinlik çəkib.

❖ Sosial müdafiə üzrə aidiyyəti dövlət orqanlarının fəaliyyətindən, həmçinin vətəndaşların müharibə iştirakçılarına həssas münasibətindən irəli gələn mühüm məqam kimi qeyd oluna bilər ki, sorğu iştirakçılarının 54.2%-i Prezidentdən əsas gözləntiləri sırasında şəhid ailələrinin, müharibə iştirakçılarının yaşayış vəziyyətinin, maddi-məişət şəraitinin daha da yüksəldilməsi məsələsini qeyd edib.

### Əhalinin sağlamlığının qorunması

Pandemiyanın davam etməsi və xüsusi karantin rejimi şəraitində əhalinin sağlamlığının qorunması istiqamətində dövlət başçısı tərəfindən müəyyən edilən fəaliyyətə ictimai münasibət öyrənilib. Qeyd edək ki, cari il ərzində rekord yoluxma statistikasına baxmayaraq, həyata keçirilən preventiv tədbirlər nəticəsində ölkədə pandemiya vəziyyəti nəzarətdə saxlanılıb və hazırkı situasiya müsbət xarakterizə olunur. Xüsusi karantin rejimi tədbirləri nəticəsində vaksinasiya prosesinə erkən başlayan ölkələrdən biri kimi Azərbaycanda ümumilikdə 13 milyondan çox vaksin istifadə olunub.

Azərbaycan ÜST-nin əhalinin vaksinasiya səviyyəsi ilə bağlı kritik hədəflərinə yaxın ölkələr sırasında qərarlaşıb. Halbuki vaksin millətçiliyi nəticəsində Afrika ölkələri və digər bir sıra ölkələrdə əhalinin 80%-i hətta birinci doza üzrə peyvənd olunmayıb. Qeyd edək ki, Prezident beynəlxalq ictimaiyyət qarşısında vaksin millətçiliyinə qarşı təşəbbüskarlıq göstərən ilk lider olub.




Digər tərəfdən cari dövrdə ölkədə rəqəmsal və elektron səhiyyə sisteminin qurulması, tibbi xidmətlər zərfinin genişləndirilməsi baxımından da müsbət nəticələr əldə olunub. Tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və tibb işçilərinin sosial rifahının yaxşılaşdırılması sahəsində bir sıra mühüm tədbirlər görülüb, eləcə də dövlət başçısı tərəfindən səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə bir sıra şəxslər fəxri adlarla mükafatlandırılıb.

Keçirilən sorğu əsasında Prezident tərəfindən əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən fəaliyyət vətəndaş rəyində qiymətləndirilib. Sorğuda iştirak edən vətəndaşların 68.3%-i bu sahədə fəaliyyəti “çox yaxşı”, 24.9%-i “əsasən yaxşı” qiymətləndirib. Ümumilikdə respondentlərin 5.6%-i məsələyə əks mövqedən yanaşıb, 1.3%-i fikir bildirməkdə çətinlik çəkib.

❖ Prezidentin əhalinin sağlamlığının qorunması istiqamətində fəaliyyətini “çox yaxşı” qiymətləndirən respondentlərin 58.8%-i aidiyyəti dövlət orqanlarının keyfiyyətli səhiyyə xidmətləri ilə təminatını “çox səmərəli”, 31.6%-i “qismən səmərəli”, 8.1%-i “səmərəsiz” qiymətləndirib. Respondentlərin 1.5%-i cavab verməkdə çətinlik çəkib.

❖ Sorğuda iştirak edənlərin Prezidentdən əsas gözləntiləri arasında respondentlərin 18.0%-i səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məsələsini qeyd edib. Həmçinin




ölkədə mühüm hesab olunan problemlər arasında respondentlərin 17.4%-i tərəfindən səhiyyənin vəziyyəti qeyd olunub.

❖ Prezidentin əhalinin sağlamlığının qorunması istiqamətində fəaliyyətinə ictimai münasibət ilə sosial müdafiə, həmçinin müharibə iştirakçılarına, şəhid ailələrinə dəstək fəaliyyətinə münasibət arasında müsbət əlaqə qeydə alınıb.

Ötən dövr üzrə dinamikaya nəzər yetirdikdə, postpandemiya dövrü hesab olunan hazırkı mərhələdə əhalinin sağlamlığının qorunması sahəsində fəaliyyət öz nəticələrinə görə daha yüksək qiymətləndirilir. Ötən ilin aprel ayı üzrə keçirilən sorğular zamanı bu istiqamətdə fəaliyyəti "çox yaxşı" və "əsasən yaxşı" qiymətləndirənlər 54.9% və 28.5%, noyabr-dekabr ayları üzrə müvafiq olaraq 55.3% və 29.0% təşkil etmişdi. Cari sorğu üzrə sözügedən nəticələr 68.3% və 24.9% təşkil edib.

### Kadr islahatları

Prezidentin 2019-cu ildən başlayan və miqyasına görə əvvəlki dövrlərdən fərqlənən yeni islahatlar kursu ötən illərdə olduğu kimi cari ilin birinci yarısı ərzində də davam edib. Kadr islahatlarının və kadr siyasətinin qurucu prinsipləri kimi vətənpərvərlik, milli ruh, peşəkarlıq və vətəndaşlara xidmət dövlət başçısının çıxışlarında, müsahibələrində, çağırışlarında daim vurğulanıb. Kadr siyasətinin yeni tələblərinə uyğun olaraq ötən illər ərzində mərkəzi və yerli hakimiyyət orqanlarında gəncləşdirmə siyasəti aparılıb, köhnə psixologiyanın qırılması məqsədilə müasir təfəkkürlü insanlar mühüm vəzifələrə təyin edilib. Ölkə rəhbəri tərəfindən ilin ilk dörd ayı ərzində aparılan kadr islahatları çərçivəsində 10 vəzifəli şəxsin təyinatı ilə bağlı sərəncamlar imzalanıb. Kadr islahatları Dövlət Neft Şirkəti, Mərkəzi Bank, digər dövlət strukturları və əsas etibarilə yerli icra hakimiyyəti orqanlarını əhatə edib.

Prezident tərəfindən aparılan kadr islahatlarına münasibətdə sorğu iştirakçılarının 57.2%-i "çox yaxşı", 30.3%-i "əsasən yaxşı" mövqe bildirib. Respondentlərin 3.3%-i "əsasən pis", 4.9%-i "çox pis" cavablarını qeyd edib. Respondentlərin 4.3%-i fikir bildirməkdə çətinlik çəkib.

❖ Dövlət başçısı tərəfindən kadr islahatları və kadr siyasəti istiqamətində aparılan davamlı, məqsədyönlü siyasətin nəticəsi kimi şərh oluna bilər ki, ölkədəki mühüm problemlər sırasında kadr siyasəti məsələsi respondentlərin cəmi 7.4%-i tərəfindən qeyd olunub.






❖ Prezident tərəfindən aparılan kadr islahatlarını müsbət mövqedən qiymətləndirən respondentlərin (cəmi 87.5%) mütləq əksəriyyəti Prezidentin yerlərdə baş verənlər haqqında məlumatlı olduğu mövqeyini bölüşüb. Kadr islahatlarını mənfi mövqedən qiymətləndirən respondentlərin (cəmi 8.2%) yarısından çoxu isə Prezidentin yerlərdə baş verənlər haqqında məlumatsız olduğu qənaətini ifadə edib.

❖ Prezident tərəfindən aparılan kadr islahatlarını bu və ya digər dərəcədə müsbət qiymətləndirən respondentlərin mütləq əksəriyyəti "Ölkə Prezidenti öz fəaliyyətində vətəndaşların rəyini nəzərə alır" fikri ilə razı olduğunu bildirib.

❖ Regional müstəvidə nəzər yetirdikdə Qazax-Tovuz, Gəncə-Daşkəsən, Lənkəran-Astara iqtisadi rayonları üzrə sorğuda iştirak edən respondentlər kadr islahatlarını daha çox müsbət, Abşeron-Xızı, Bakı və Quba-Xaçmaz iqtisadi rayonları üzrə nisbətən az müsbət qiymətləndirib.

❖ Təhsil səviyyəsi və yaş qrupu üzrə nəzər yetirdikdə, tam orta təhsilli respondentlərin 63.5%-i, texniki və ya peşə təhsilli respondentlərin 55.3%-i, ali təhsilli respondentlərin 49.3%-i Prezidentin kadr islahatlarını "çox yaxşı" qiymətləndirib. Həmçinin kadr islahatlarına aşağı və orta yaş qrupuna aid respondentlər üzrə daha çox müsbət, yuxarı yaş qrupuna aid respondentlər üzrə nisbətən az müsbət mövqe qeydə alınıb.

Ötən dövr üzrə keçirilən sorğular Prezident tərəfindən aparılan kadr islahatlarına yüksək ictimai münasibəti özündə əks etdirib. Bununla belə, münasibətin dinamikası ilə aparılan kadr islahatlarının dinamikası arasında əlaqənin mövcudluğu qeyd oluna bilər. Ötən dövr üzrə Prezident tərəfindən aparılan kadr islahatlarını "çox yaxşı" qiymətləndirənlər 2020-ci ilin mart və iyun ayı üzrə keçirilən sorğularda müvafiq olaraq 64.9% və 53.9%, 2021-ci ilin aprel və noyabr-dekabr ayları üzrə 43.7% və 46.5%, cari sorğunun nəticələri üzrə 57.2% təşkil edib.

### Korrupsiyaya qarşı mübarizə

Kadr islahatlarının paralelində korrupsiyaya qarşı mübarizə siyasəti dayanır. Bu istiqamətdə siyasət yeni kadrların təyinatı, dövlət nəzarəti və ictimai nəzarət, eləcə də institusional islahatlar zəminində qurulub. Dövlət orqanları və qurumları qarşısında qoyulan şəffaf, operativ, hesabatlı fəaliyyət tələbləri, "ASAN xidmət" modeli mümkün korrupsiya hüquqpozmalarının






qarşısını almağa yönəlib.

Keçirilmiş əvvəlki rəy sorğuları onu deməyə əsas verir ki, korrupsiyaya qarşı mübarizə fonunda vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb olunması ictimaiyyət tərəfindən dəstək görüb. Cari sorğu nəticələrinin təhlili də Prezident tərəfindən korrupsiyaya qarşı mübarizə çərçivəsində müəyyən olunan siyasətin vətəndaşlar tərəfindən müsbət qiymətləndirildiyini göstərir.

Prezidentin korrupsiyaya qarşı mübarizə istiqamətində fəaliyyəti respondentlərin 60.8%-i tərəfindən "çox yaxşı", 26.7%-i tərəfindən "əsasən yaxşı" qiymətləndirilib. Rəyi öyrənilənlərin 3.7%-i "əsasən pis", 6.2%-i "çox pis" cavablarını qeyd edib. Respondentlərin 2.6%-i cavab verməkdə çətinlik çəkib.

❖ Prezidentin korrupsiyaya qarşı mübarizə fəaliyyətini "çox yaxşı" qiymətləndirənlərin 67.0%-i korrupsiyaya qarşı mübarizə sahəsində aidiyyəti orqanların fəaliyyətini "çox səmərəli", 23.9%-i "qismən səmərəli", 7.6%-i "səmərəsiz" qiymətləndirib. Respondentlərin 1.4%-i rəy bildirməkdə çətinlik çəkib.

❖ Təhsil göstəriciləri üzrə nəzərdən keçirdikdə, tam orta təhsilli respondentlərin 67.1%-i, texniki və ya peşə təhsilli respondentlərin 59.1%-i, ali təhsilli respondentlərin 51.5%-i Prezidentin korrupsiyaya qarşı mübarizə fəaliyyətini "çox yaxşı" hesab edib.

❖ Korrupsiyaya qarşı mübarizə fəaliyyətinə münasibət ilə "Ölkə Prezidenti öz fəaliyyətində vətəndaşların rəyini nəzərə alır" fikrinə münasibət arasında müsbət əlaqə qeydə alınıb. Həmçinin bu istiqamətdə fəaliyyəti ümumilikdə müsbət qiymətləndirənlərin 86.6%-i Prezidentin yerlərdə baş verənlər barədə məlumatlı olduğunu bildirib.

❖ Korrupsiya halları respondentlərin 26.4%-i tərəfindən mühüm problemlər sırasında qeyd olunub. Eləcə də respondentlərin 60.1%-i Prezidentdən məmur özbaşınalığının qarşısının alınması, 26.3%-i korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsi gözləntilərini ifadə edib.

Korrupsiyaya qarşı mübarizə fəaliyyəti kadr islahatlarının, nəzarət tədbirlərinin və institusional islahatların paralelində dayanır və bu sahədə fəaliyyətə ictimai münasibət yüksək olmaqla, bu sahədə aparılan dövri tədbirlərə uyğun olaraq dinamik xarakter daşıyır. Prezidentin korrupsiyaya qarşı mübarizə fəaliyyətini "çox yaxşı" qiymətləndirənlər 2020-ci ilin mart və iyun ayları üzrə 62.5% və 56.1%, 2021-ci ilin aprel və noyabr-dekabr ayları üzrə 45.8% və 48.6%, cari sorğunun nəticələri üzrə 60.8% təşkil edib.

### Korrupsiyaya qarşı Milli Fəaliyyət Planı

Korrupsiyaya qarşı mübarizə istiqamətində dövlət başçısı tərəfindən təsdiq edilən "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" bu sahədə aparılan dövlət siyasəti üzrə yeni mərhələnin başlanğıcı hesab oluna bilər. Ümumiyyətlə, korrupsiya faktoru bütün dünya ölkələrində aktual problemlərdən biri olaraq ictimai nizama, sosial rifaha və qanunun aliliyinə təhlükə yaradır və bu sahədə qabaqlayıcı tədbirlər kompleksinin hazırlanmasını, icrasını zəruri edir.

Sözügedən Milli Fəaliyyət Planı korrupsiya hüquqpozmalarına qarşı preventiv tədbirlərin

görülməsi istiqamətində həyata keçirilən növbəti milli təşəbbüsdür. Milli Fəaliyyət Planında dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının daha da gücləndirilməsi, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi, eləcə də korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsi hədəflənir.

Qeyd olunan bu hədəflərlə bağlı ictimai rəy sorğusu əsasında vətəndaşların “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın tətbiqinin bu istiqamətdə hansı dəyişikliklərə yol açacağı barədə fikirləri öyrənilib. Sorğu nəticələrinin təhlilinə əsasən respondentlərin 51.1%-i Milli Fəaliyyət Planının korrupsiyaya qarşı mübarizədə şəffaflığı artıracağını, 40.8%-i dövlət orqanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yüksələcəyini, 26.6%-i ictimai nəzarətin və korrupsiya hallarının ifşa edilməsində vətəndaş cəmiyyəti institutlarının rolunun artacağını, həmçinin digər gözləntilərini qeyd edib. Rəyi öyrənilənlərin 6.2%-i sözügedən fəaliyyət planının heç bir təsirinin olmayacağını bildirib, 0.9%-i fikir bildirməkdə çətinlik çəkib. Qeyd edək ki, sorğuda iştirak edən təqribən hər dörd respondentdən biri (23.4%) sözügedən Milli Fəaliyyət Planı haqqında məlumatlı olmadığını bildirib.

❖ Milli Fəaliyyət Planının mümkün müsbət təsirlərini qeyd edən respondentlərin əksəriyyəti (71.0%-75.3%) Prezidentin korrupsiyaya qarşı mübarizə fəaliyyətini, əsas hissəsi (58.7%-63.9%) aidiyyəti dövlət orqanlarının korrupsiyaya qarşı mübarizə fəaliyyətini müsbət qiymətləndirib.






❖ Milli Fəaliyyət Planı haqqında məlumatsız olan sorğu iştirakçılarının 24.9%-i şəhər, 13.0%-i qəsəbə və 62.1%-i kənd ərazi vahidlərində məskunlaşan respondent qrupları olub. Həmçinin məlumatsız respondentlərin 51.4%-i ümumorta və tam orta təhsilli, 29.6%-i texniki və ya peşə təhsilli, 17.8%-i ali təhsillidir.

❖ Milli Fəaliyyət Planının heç bir təsiri olmayacağını güman edən respondentlərin (6.2%) əksəriyyəti eyni zamanda aidiyyəti dövlət orqanlarının korrupsiyaya qarşı mübarizə fəaliyyətini səmərəsiz hesab edib.

### İctimai-siyasi sabitlik

Azərbaycan ayrı-ayrı dövrlərdə, xüsusən postmüharibə mərhələsində xarici dairələrdən qurulan müdaxilə ssenarilərinə, kənar təsir amillərinə və dezinformasiya təbliğatlarına qarşı region ölkələri arasında öz sabitliyini qoruyub saxlamağı bacarıb. Dünya coğrafiyasında ictimai-siyasi sabitliyi pozan və ölkələri xaosa qərq edən müxtəlif xarici meyillər Azərbaycanda xalqın iradəsi ilə dəf edilib. Bu fakt beynəlxalq tədqiqatlarda öz təsdiqini tapıb.

Prezidentin ölkənin ictimai-siyasi sabitliyi ilə bağlı müəyyən etdiyi istiqamətin müxtəlif konturları qeyd oluna bilər. İctimai-siyasi sabitliklə bağlı aparılan siyasət Azərbaycanı həm daxili siyasi vəziyyət, həm də region ölkələrinin geosiyasi müstəvisindəki yeri baxımından təhlükəsizlik məkanına çevirib. Pandemiya şəraitində müxtəlif ölkələrin nümunəsində görülən qabaqlayıcı və məhdudlaşdırıcı dövlət tədbirlərinə qarşı etiraz dalğaları Azərbaycan cəmiyyətində aparılan uğurlu strateji fəaliyyət nəticəsində öz təsdiqini tapmayıb. Həm pandemiyanın yaratdığı çətinliklər, həm də müharibə şəraiti qarşıya qoyulan ümummilli hədəflərə çatmaq baxımından dövlət və cəmiyyət arasında birlik və milli həmrəyliyi gücləndirib.

Keçirilən rəy sorğuları ictimai-siyasi sabitliklə bağlı fəaliyyətə vətəndaş münasibətinin yüksək olduğunu göstərib. Bu istiqamətdə fəaliyyət respondentlərin 75.0%-i tərəfindən "çox yaxşı", 22.4%-i tərəfindən "əsasən yaxşı" qiymətləndirilib. Bu sahədə fəaliyyəti sorğu iştirakçılarının cəmi 0.6%-i "əsasən pis", 1.2%-i "çox pis" qiymətləndirib. Respondentlərin 0.8%-i mövqe bildirməkdə çətinlik çəkib.

❖ Prezidentin ictimai-siyasi sabitlik istiqamətində fəaliyyətini "çox yaxşı" qiymətləndirən respondentlərin 81.5%-i aidiyyəti dövlət strukturlarının əhalinin təhlükəsizliyi və ictimai sabitlik sahəsində fəaliyyətini "çox səmərəli", 15.5%-i



"qismən səmərəli", cəmi 2.3%-i "səmərəsiz" qiymətləndirib, 0.6%-i rəyini bildirməkdə çətinlik çəkib. Bu göstəricilər müəyyən olunan dövlət siyasəti və onun icrası arasında uyğunluğu ictimai rəy əsasında təsdiqləyir.

❖ Respondent rəylərini regional müqayisədə nəzərdən keçirdikdə Quba-Xaçmaz, Lənkəran-Astara və Qarabağ iqtisadi rayonları üzrə sorğuda iştirak edən respondentlərin bütövlükdə hamısı dövlət başçısının ictimai-siyasi sabitlik sahəsində fəaliyyətini "çox yaxşı" və ya "əsasən yaxşı" qiymətləndirib.

❖ Bu istiqamətdə fəaliyyət respondentlərin təhsil və gəlir səviyyəsindən, yaş qrupundan asılı olmayaraq onların mütləq əksəriyyəti tərəfindən müsbət qiymətləndirilib.

Ötən dövr üzrə keçirilmiş sorğuların və cari sorğunun nəticələri Prezident tərəfindən ictimai-siyasi sabitliklə bağlı fəaliyyətə ictimai münasibətin yüksək olduğunu göstərir. Belə ki, 2020-ci ilin iyun ayı üzrə sorğu iştirakçılarının 59.0%-i, 2021-ci ilin aprel və noyabr-dekabr ayları üzrə müvafiq olaraq 60.0%-i və 60.2%-i, cari sorğu nəticələri üzrə 75.0%-i bu sahədə fəaliyyəti "çox yaxşı" qiymətləndirib.

### Qeyri-neft sektorunun inkişafı

İctimai-siyasi sabitlik eyni zamanda iqtisadi artım üçün mühüm bazis rolunda çıxış edir. 2017-ci ildə aparılan iqtisadi sabitləşmə siyasətindən sonra, 2018-ci ildə dərin iqtisadi islahatlar həyata keçirilib və 2019-cu ildə yeni iqtisadi inkişaf strategiyası üzərində çalışılıb. Neftdən asılılığı azaltmaq, iqtisadiyyatı şaxələndirmək məqsədilə növbəti illər ərzində qeyri-neft sektorunun inkişafına xüsusi diqqət ayrılıb və ölkə rəhbərliyi bu sahəni bilavasitə nəzarətdə saxlayıb. Beləliklə, yeni iqtisadi platformaya keçid üçün tam şərait yaradılıb. İqtisadi suverenliyin möhkəmləndirilməsi və sosial rifah cəmiyyəti hədəflərinə yönələn "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təkcə lokal miqyasda deyil, regionun potensial inkişaf meyillərini nəzərdə tutub.




Keçirilən rəy sorğuları əhalinin Prezidentin qeyri-neft sektorunun inkişafı sahəsində fəaliyyətini yüksək qiymətləndirdiyini göstərib. Belə ki, rəyi öyrənilənlərin 65.9%-i bu sahədəki fəaliyyəti "çox yaxşı", 25.8%-i "əsasən yaxşı" dəyərləndirib. Sorğu iştirakçılarının 2.0%-i "əsasən pis", 2.5%-i "çox pis" cavab variantlarını qeyd edib. Respondentlərin 3.8%-i mövqe bildirməkdə çətinlik çəkib.

❖ Prezidentin qeyri-neft sektorunun inkişafı sahəsində fəaliyyətini yüksək qiymətləndirən



respondentlər eyni zamanda Azərbaycanın karbohidrogen ehtiyatlarından asılılığı azaldaraq bərpa olunan enerji resurslarına yönəlməsinə də müsbət mövqedən yanaşıb.

❖ Prezidentin bu istiqamətdə fəaliyyətini "çox yaxşı" qiymətləndirən respondentlərin 79.0%-i aidiyyəti dövlət orqanlarının iqtisadiyyatın gücləndirilməsi və qeyri-neft sektorunun inkişafı sahəsində fəaliyyətini "çox səmərəli", 16.6%-i "qismən səmərəli", cəmi 2.1%-i "səmərəsiz" qiymətləndirib. Respondentlərin 2.3%-i fikir bildirməkdə çətinlik çəkib. Prezidentin qeyri-neft sektorunun inkişafı sahəsində fəaliyyətinə və bu sahədə aidiyyəti dövlət orqanlarının fəaliyyətinə münasibət dövlət siyasəti və onun icrası arasında uyğunluğu özündə əks etdirib.

❖ Qeyri-neft sektorunun inkişafı istiqamətində fəaliyyət respondentlərin təhsil və gəlir səviyyəsindən, yaş qrupundan asılı olmayaraq müsbət qiymətləndirilib.

❖ Respondent rəylərini regional müqayisədə nəzərdən keçirdikdə, Qazax-Tovuz, Qarabağ və Şəki-Zaqatala iqtisadi rayonları üzrə respondentlər tərəfindən bu sahədə fəaliyyət daha çox, Abşeron-Xızı, Quba-Xaçmaz və Mərkəzi Aran iqtisadi rayonları üzrə nisbətən az müsbət qiymətləndirilib.

Qeyri-neft sektorunun inkişafına münasibətdə dövri dinamikanı nəzərdən keçirdikdə dövlət başçısının bu istiqamətdə fəaliyyətini "çox yaxşı" qiymətləndirənlər 2021-ci ilin aprel və noyabr-dekabr aylarında keçirilən sorğular üzrə 45.3% və 49.7%, cari sorğunun nəticələri üzrə 65.9% təşkil edib.

### Ərzaq təhlükəsizliyi

Ötən bir neçə il ərzində COVID-19 pandemiyası, regional proseslər, iqlim dəyişikliyi, torpaq, su və digər təbii resursların daha da məhdudlaşması qlobal ərzaq təhlükəsizliyinin təminatı üçün təhdidlər yaradıb. Təbii olaraq ərzaq qıtlığı ərzaq qiymətlərində bahalaşmaya yol açıb. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatlarında ərzaq qiymətlərinin indeksi üzrə cari ilin mart ayında qeydə alınan göstərici 2004-cü ildən bu günə qədər ən yüksək göstərici olub.

Əsas idxal bazarları olan ölkələrin öz daxili bazarında qiymət sabitliyini təmin etmək və ərzaq ehtiyatlarını yaratmaq istiqamətində reallaşdırdıqları intervensiyalar digər ölkələrin idxal məhsullarında qiymət artımını stimullaşdırıb. Qlobal məkanda baş verən proseslər digər ölkələr kimi Azərbaycanda da əhalinin ərzaq təminatına təhdidlər yaradıb. Dövlət başçısının tapşırıqları əsasında bu istiqamətdə qabaqlayıcı tədbirlər planı icra edilib, yerli istehsal potensialının yüksəldilməsi, yerli özünütəminat səviyyəsinin qorunması, ərzaq təhlükəsizliyi istiqamətində yeni mexanizmlərin yaradılması, idxal-ixrac əməliyyatlarına və yerli ehtiyatlara nəzarət, qiymət manipulyasiyasının qarşısının alınması başlıca hədəflər arasında qərarlaşıb.




Prezident tərəfindən əhalinin ərzaq təminatı və ərzaq təhlükəsizliyi istiqamətində fəaliyyəti respondentlərin 59.8%-i tərəfindən "çox yaxşı", 30.1%-i tərəfindən "əsasən yaxşı" qiymətləndirilib. Rəyi öyrənilənlərin 3.5%-i "əsasən pis", 5.6%-i "çox pis" cavablarını qeyd edib. Respondentlərin 1.0%-i fikir bildirməkdə çətinlik çəkdiyini bəyan edib.

❖ Respondentlərin rəylərinə əsasən hazırda bu istiqamətdə aktual olan ərzaq qıtlığı deyil, qiymətlərin bahalaşması və süni qiymət artımının tənzimlənməməsi problemidir. Belə ki, rəyi öyrənilənlərin 59.0%-i tərəfindən ölkənin mühüm problemi kimi qiymətlərin bahalaşması, 46.7%-i tərəfindən süni qiymət artımının tənzimlənməməsi, cəmi 5.1%-i tərəfindən ərzaq məhsullarının kifayət qədər tapılmaması məsələsi qeyd olunub.

❖ Prezidentin bu istiqamətdə fəaliyyətini "çox yaxşı" qiymətləndirən respondentlərin 69.7%-i aidiyyəti orqanların ərzaq təhlükəsizliyi və keyfiyyətli ərzaq təminatı sahəsində fəaliyyətini "tam səmərəli" qiymətləndirib.

❖ Respondentlərin rəylərinə regional müqayisədə nəzər yetirdikdə, Prezidentin əhalinin ərzaq təminatı və ərzaq təhlükəsizliyi istiqamətində fəaliyyətini daha çox müsbət mövqedən qiymətləndirənlər Qazax-Tovuz, Mərkəzi Aran, nisbətən az müsbət mövqedən qiymətləndirən-

lər Gəncə-Daşkəsən, Quba-Xaçmaz iqtisadi rayonlarında məskunlaşan respondentlər olub.

❖ Ərzaq təminatı məsələsinə təhdidlər sırasında respondentlər tərəfindən Rusiya-Ukrayna müharibəsi də qeyd olunub. Respondentlərin 29.5%-i sözügedən müharibənin Azərbaycan üçün nəticəsi kimi ərzaq təhlükəsizliyi məsələsini bildirib.

❖ Nəticələrin təhlilinə əsasən, cari il ərzində gəlirlərinin artdığını bildirənlərin 70.8%-i bu istiqamətdə fəaliyyəti "çox yaxşı" qiymətləndirərkən, gəlirləri azalanların isə 47.6%-i eyni mövqedən çıxış edib.

### İctimai-mədəni sahə

Sorğunun nəticələri bir daha onu göstərir ki, Prezidentin müxtəlif istiqamətlərdə, o cümlədən ictimai-mədəni istiqamətdə siyasəti diqqətlə izlənilir. Belə ki, respondentlərin 76.9%-i Prezidentin ictimai-mədəni istiqamətdə siyasətini "çox yaxşı", 19.5%-i isə "əsasən yaxşı" qiymətləndirib.

❖ Sorğu nəticələrinin müxtəlif kriteriyalar üzrə təhlilinə əsasən yuxarı yaş qrupunu təmsil edənlər, tam orta təhsillilər, dövlət sektorunda işləyənlər, yüksək gəlir qrupunu təmsil edənlər, Lənkəran-Astara və Qarabağ iqtisadi rayonlarından olan respondentlər "çox yaxşı" mövqeyindən çıxış ediblər.

❖ Yaşadığı yerə və gender bölgüsünə görə də ciddi fərq müşahidə edilmir.

❖ "Əsasən yaxşı" variantını isə nisbi üstünlük dərəcəsi ilə gənclərin 28.0%-i, qəsəbədə yaşayanların 22.0%-i, işsiz olub, hal-hazırda iş axtarmayanların 30.0%-i, tələbələrin 29.0%-i, Gəncə-Daşkəsən iqtisadi rayonundan olan respondentlərin 31.4%-i seçib. Digər iqtisadi rayonlara nisbətdə Quba-Xaçmaz və Şirvan-Salyandan olan respondentlər arasında bu cavab variantını nisbətən çox seçənlərə rast gəlinir.




### Prezidentin təşəbbüsü ilə ictimai-mədəni sahədə keçirilən tədbirlər

Sorğu çərçivəsində cari dövr ərzində respondentlərin Prezidentin təşəbbüsü ilə ictimai-mədəni sahədə keçirilən tədbirlərə münasibəti də öyrənilib. Nəticələrin təhlilinə əsasən, respondentlər Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar ümumxalq yürüşünün keçirilməsini (81.9% - "çox yaxşı", 10.5% - "əsasən yaxşı"), 2022-ci ilin "Şuşa ili" elan olunmasını (94.3% - "çox yaxşı", 3.8% - "əsasən yaxşı"), Suqovuşanda Novruz tonqalının qalanması və Prezidentin xalqa təbrik çıxışını (92.0% - "çox yaxşı", 6.0% - "əsasən yaxşı"), Şuşada Dünya Azərbaycanlılarının V Qurultayının keçirilməsini (87.6% - "çox yaxşı", 6.8% - "əsasən yaxşı") yüksək qiymətləndiriblər.

❖ Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar ümumxalq yürüşünün keçirilməsini "çox yaxşı" qiymətləndirənlər ümumi seçmədə yuxarı yaş qrupunu təmsil edənlər, şəhərdə yaşayanlar, ali təhsillilər, tələbələr, yüksək gəlir qrupunu təmsil edənlər, Bakı və Qarabağ iqtisadi rayonlarında yaşayan respondentlər olublar.

❖ "Əsasən yaxşı" qiymətləndirənlər yuxarı yaş qrupunu təmsil edənlər, qəsəbədə yaşayanlar, tam orta təhsillilər, işsiz olub, hal-hazırda iş axtaranlar və iş axtarmayanlar, təqaüdçülər və evdar qadınlar, aşağı gəlir qrupunu təmsil edənlər, Dağlıq Şirvan, Quba-Xaçmaz və Mil-Muğan iqtisadi rayonlarını təmsil edən respondentlər olublar

❖ Bu tədbir haqqında heç məlumatı olmayanlar arasında aşağı və orta yaş qrupunu təmsil edənlərin, orta nəslin nümayəndələrinin, kənddə yaşayanların, texniki və ya peşə təhsillilərin, evdar qadınların, aşağı gəlir qrupunu təmsil edənlərin, Lənkəran-Astara, Şəki-Zaqatala iqtisadi rayonlarından olanların üstünlük dərəcəsi daha çoxdur.

❖ Təqaüdçülərin 2%-i, işsiz olub, hal-hazırda iş axtarmayanların 3.3%-i, yaşlı nəslin nümayəndələrinin 2.0%-i, Abşeron-Xızı iqtisadi rayonundan olanların 4.5%-i bu suala cavab verməkdə çətinlik çəkiblər.

❖ 2022-ci ilin "Şuşa ili" elan olunmasını "çox yaxşı" qiymətləndirənlər yuxarı yaş qrupunu təmsil edənlər, kənddə yaşayanlar, texniki və

ya peşə təhsillilər, ali təhsillilər, qadınlar, dövlət sektorunda işləyənlər, tələbələr, evdar qadınlar, yüksək gəlir qrupunu təmsil edənlər, Dağlıq Şirvan və Qazax-Tovuz iqtisadi rayonlarını təmsil edənlər olublar.

❖ "Əsasən yaxşı" cavab variantını seçənlər arasında aşağı yaş qrupunu təmsil edənlər, qəsəbədə yaşayanlar, işsiz olub, hal-hazırda iş axtarmayanlar, yüksək gəlir qrupunu təmsil edənlər, Abşeron-Xızı iqtisadi rayonunu təmsil edən respondentlər nisbətən çoxluq təşkil edir.

❖ Orta nəslin nümayəndələri, işsiz olub, hal-hazırda iş axtaranlar, Lənkəran-Astara, Şirvan-Salyan iqtisadi rayonlarından olanların müəyyən bir hissəsinin bu hadisə ilə bağlı məlumatı yoxdur.

❖ Suqovuşanda Novruz tonqalının qalanması və Prezidentin xalqa təbrik çıxışını "çox yaxşı" qiymətləndirənlər yuxarı yaş qrupunu təmsil edənlər, dövlət sektorunda işləyənlər, aşağı gəlir qrupunu təmsil edənlər, Qarabağ və Mərkəzi Aran iqtisadi rayonlarını təmsil edən respondentlər olublar. Yaşayış yeri, təhsil və gender səviyyəsi üzrə ciddi fərq müşahidə edilmir.

❖ "Əsasən yaxşı" qiymətləndirənlər aşağı yaş qrupunu təmsil edənlər, ali təhsillilər, işsiz olub, hal-hazırda iş axtaranlar və iş axtarmayanlar, orta gəlir qrupunu təmsil edənlər, Abşeron-Xızı, Gəncə-Daşkəsən və Mil-Muğan iqtisadi rayonlarından olan respondentlər nisbətən üstünlük təşkil ediblər.

❖ "Çox pis" cavab variantını seçənlər şəhərdə yaşayanlar, Bakı və Mil-Muğan iqtisadi rayonlarını təmsil edənlər arasında müşahidə edilib.

| Prezidentin təşəbbüsü ilə ictimai-mədəni sahədə keçirilən aşağıdakı tədbirləri necə qiymətləndirirsiniz? | Çox yaxşı | Əsasən yaxşı | Əsasən pis | Çox pis | Məlumatım yoxdur | ÇÇ |
|---|---|---|---|---|---|---|
| Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar ümumxalq yürüşünün keçirilməsi | 81.9% | 10.5% | 0.2% | 0.4% | 6.7% | 0.5% |
| 2022-ci ilin "Şuşa ili" elan olunması | 94.3% | 3.8% | 0.1% | 0.5% | 1.3% | 0.1% |
| Suqovuşanda Novruz tonqalının qalanması və Prezidentin xalqa təbrik çıxışı | 92.0% | 6.0% | 0.4% | 0.9% | 0.6% | 0.2% |
| Şuşada Dünya Azərbaycanlılarının V Qurultayının keçirilməsi | 87.6% | 6.8% | 0.2% | 0.7% | 4.7% | 0.1% |

❖ Quba-Xaçmaz iqtisadi rayonunu təmsil edən respondentlər, tələbələr, işsiz olub, hal-hazırda iş axtarmayanlar məlumatı olmayanlar sırasında nibətən öndədirlər.

❖ Şuşada Dünya Azərbaycanlılarının V Qurultayının keçirilməsini "çox yaxşı" qiymətləndirənlər yuxarı yaş qrupunu təmsil edənlər, şəhərdə yaşayanlar, ali təhsillilər, dövlət sektorunda çalışanlar, yüksək gəlir qrupunu təmsil edənlər, Qarabağ və Bakı iqtisadi rayonlarını təmsil edən respondentlər olublar. Gender səviyyəsi üzrə ciddi fərq müşahidə edilmir.

❖ "Əsasən yaxşı" qiymətləndirənlər orta yaş qrupunu təmsil edənlər, qəsəbədə yaşayanlar, texniki və ya peşə təhsillilər, işsiz olub, hal-hazırda iş axtaranlar və iş axtarmayanlar, tələbələr və evdar qadınlar, nisbətən yüksək gəlir qrupunu təmsil edənlər, Qazax-Tovuz və Mil-Muğan iqtisadi rayonlarını təmsil edən respondentlər olublar.

❖ "Çox pis" qiymətləndirənlər aşağı yaş qrupunu təmsil edənlər, nisbətən yüksək gəlir qrupunu təmsil edənlər, Abşeron-Xızı və Mil-Muğan iqtisadi rayonlarından olanlar olublar.

❖ Bu cavab variantı üzrə məlumatlılıq səviyyəsi nisbətən aşağıdır: yuxarı yaş qrupunu təmsil edənlər, kənddə yaşayanlar, ümumi orta təhsillilər, işsiz olub, hal-hazırda iş axtarmayanlar, təqaüdçülər, orta gəlir qrupunu təmsil edənlər, Dağlıq Şirvan, Lənkəran-Astara, Şəki-Zaqatala, Şirvan-Salyan iqtisadi rayonlarını təmsil edən respondentlər.

❖ Qeyd edək ki, Prezidentin ictimai-siyasi sabitlik istiqamətində fəaliyyətini "çox yaxşı" qiymətləndirənlərin 92.6%-i Şuşada Dünya Azərbaycanlılarının V Qurultayının keçirilməsini müsbət qarşılayıb.

**Enerji siyasəti**

Prezident İlham Əliyevin apardığı uğurlu iqtisadi siyasət nəticəsində ölkəmizdə enerji təhlükəsizliyi tam təmin edilib. Bununla yanaşı, bütövlükdə Azərbaycan iqtisadiyyatının inkişafı, qeyri-neft sektorunun yüksəlişi bizi yeni çağırışlarla üzləşdirir və yeni yanaşmalar tələb edir. Son illərdə aparılmış islahatların bir hissəsi bərpa olunan enerji istehsalı ilə bağlıdır. Bu sahədə bir sıra təşəbbüslər uğurla reallaşdırılıb və bərpa olunan energetika sahəsi son dövrlərdə yaşıl iqtisadiyyatın inkişafında önəmli yer alıb. Elektrik enerjisi istehsalının bərpa olunan enerji mənbələri hesabına şaxələndirilməsi Azərbaycan Respublikası Prezidentinin diqqət yetirdiyi prioritetlərdən biridir.

Prezident tərəfindən təsdiq edilmiş və növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetdən ("Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər") biri kimi "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" müəyyənləşdirilib. Belə ki, ölkənin sosial-iqtisadi inkişafı üzrə prioritetlərə uyğun olaraq, cari və gələcək dövrdə bərpa olunan enerji mənbələrindən istifadəyə, "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsinə daha çox diqqət ayrılacaq. Bu məqsədlə artıq bir sıra beynəlxalq şirkətlərlə əlaqələr qurulub, pilot layihələrin icrası həyata keçirilib, müqavilələr imzalanıb.

Qeyd edək ki, Prezidentin tapşırığı ilə 2020-ci il yanvarın 9-da Azərbaycan Respublikası Baş nazirinin iştirakı ilə Nazirlər Kabinetində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında bərpa olunan enerji üzrə pilot layihələrin reallaşdırılmasına dair İcra müqavilələrinin imzalanması mərasimi keçirilib. Müqavilələrə əsasən, "ACWA Power" şirkəti ilə 240 meqavat gücündə külək, "Masdar" şirkəti ilə isə 200 meqavatlıq günəş stansiyalarının tikintisi ilə bağlı pilot layihələr icra ediləcək. Külək və günəş enerjisi layihələri üzrə ümumilikdə təxminən illik 1.4 milyard kilovat/saat elektrik enerjisinin istehsalı proqnozlaşdırılır.

Xatırladaq ki, "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il tarixli sərəncamına uyğun olaraq, bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi məqsədilə 9 beynəlxalq enerji şirkəti ilə əməkdaşlıq əlaqələri yaradılaraq, intensiv müzakirələr aparılıb. "ACWA Power" və "Masdar" şirkətləri təkliflərini təqdim edən 7 şirkət arasında üç mərhələdən ibarət seçim prosesi nəticəsində müəyyən edilib.

Bu işlərin son nəticəsi olaraq, 2022-ci il yanvarın 13-də Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının, 2022-ci il martın 15-də isə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının "Gülüstan" sarayında təməlqoyma mərasimi keçirilib, Prezident İlham Əliyev mərasimdə iştirak edərək geniş nitq söyləyib.

Qeyd edək ki, "ACWA Power" şirkəti hazırda qlobal miqyasda bərpa olunan enerji sahəsində

**Enerji infrastrukturu sahəsində aşağıdakı tədbirlərə münasibət bildirin:**

| | Çox yaxşı | Əsasən yaxşı | Əsasən pis | Çox pis | Məlumatım yoxdur | ÇÇ |
|---|---|---|---|---|---|---|
| Azərbaycanın karbohidrogen ehtiyatlarından asılılığı azaldaraq bərpa olunan enerji resurslarına yönəlməsi | 53.8% | 21.4% | 0.6% | 0.7% | 22.5% | 1.2% |
| İşğaldan azad olunan ərazilərin, Qarabağın yaşıl enerji zonasına çevrilməsi | 88.3% | 7.6% | 0.2% | 0.3% | 3.3% | 0.4% |

8000 meqavat olmaqla elektrik enerjisi sahəsində ümumilikdə 30 min 200 meqavat qoyuluş gücünə bərabər istehsal və 45 milyard ABŞ dolları məbləğində investisiya portfelinə malikdir. “Masdar” şirkəti isə bərpa olunan enerji sahəsi üzrə hazırda ümumi qoyuluş gücü 4000 meqavat həcmində istehsal portfelinə sahib olmaqla bu sahəyə indiyədək 8.5 milyard dollar məbləğində investisiya qoyuluşu həyata keçirib.

Eyni zamanda Asiya İnkişaf Bankı tərəfindən maliyyələşdirilən “Üzən Günəş Enerji Sistemlərinin İnkişafı” layihəsi çərçivəsində reallaşdırılan Böyükşor gölündə ümumi gücü 100 kVt təşkil edən üzən günəş stansiyasının tikintisi nəzərdə tutulub. Layihənin tərkib hissəsi olaraq ölkəmizin ərazisində digər göllərdə və su obyektlərində texniki mümkünlük nəzərə alınmaqla günəş enerji sistemlərinin qurulması potensialının dəyərləndirilməsi, sənaye həcmli layihənin ilkin texniki-iqtisadi əsaslandırmasının hazırlanması və bərpa olunan enerji növləri üzrə tarif metodologiyasının təhlili istiqamətində işlər aparılmaqdadır.

Beləliklə, bu layihələrin reallaşdırılması ölkəmizin enerji dayanıqlığını təmin edəcək. Bərpa olunan enerji istehsalı ölkəmizdə yaşıl iqtisadiyyatın inkişafına töhfə verəcək.

Ümumiyyətlə, rasional iqtisadi islahatlar Azərbaycan iqtisadiyyatının dinamik inkişafını təmin edən mühüm amil qismində çıxış edir. Prezidentin hesabat dövründəki fəaliyyətinin təhlili bir daha göstərir ki, ölkə iqtisadiyyatının inkişafı üçün mütəmadi surətdə reallaşdırılan praqmatik islahatlar modeli formalaşdırılıb. Bu da bütövlükdə milli inkişafa təkan verən əhəmiyyətli amildir. Eyni zamanda güclü iqtisadi inkişafa əsaslanan bir sıra tədbirlərin görülməsi Azərbaycanın milli tərəqqisini sürətləndirən, gücünü artıran başlıca strateji komponent qismində özünü büruzə verir. Xüsusilə makroiqtisadi sabitliyin qorunub saxlanılması, enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin olunması, iqtisadiyyatın diversifikasiyası, karbohidrogen ehtiyatlarından asılılığı azaldaraq bərpa olunan enerji resurslarına yönəlməsi diqqət mərkəzində saxlanılır. Bu səbəbdəndir, ki, iqtisadi sahədə atılan addımlar respondentlər tərəfindən də təqdir edilir. Azərbaycanın karbohidrogen ehtiyatlarından asılılığı azaldaraq bərpa olunan enerji resurslarına yönəlməsini respondentlərin 53.8%-i “çox yaxşı”, 21.4%-i isə “əsasən yaxşı” qiymətləndirib. Sorğu çərçivəsində məlum olur ki, 22.5% respondentin bununla bağlı məlumatı yoxdur.

❖ Nəticələrin təhlilinə əsasən Azərbaycanın karbohidrogen ehtiyatlarından asılılığı azaldaraq bərpa olunan enerji resurslarına yönəlməsini “çox yaxşı” qiymətləndirənlər içərisində yuxarı yaş qrupunu təmsil edənlər, kənd ərazi vahidində yaşayanlar, ali təhsillilər, dövlət sektorunda çalışanlar, orta gəlir qrupunu təmsil edənlər, Qazax-Tovuz iqtisadi rayonundan olan

respondentlər üstünlük təşkil edir.

❖ Aşağı və orta yaş qrupunu təmsil edənlərin, ümumi orta təhsillilərin, işsiz olub, hal-hazırda iş axtaranların, evdar qadınların, aşağı gəlir qrupunu təmsil edənlərin, Lənkəran-Astara iqtisadi rayonundan olanların bu məsələ ilə bağlı məlumatsızlıq səviyyəsi digər kriteriyalara nisbətdə yüksəkdir.

❖ Yuxarı yaş qrupunu təmsil edənlər, təqaüdçülər, Abşeron-Xızı və Quba-Xaçmaz iqtisadi rayonlarından olanların müəyyən bir qismi bu suala cavab verməkdə çətinlik çəkiblər.

❖ Azərbaycanın karbohidrogen ehtiyatlarından asılılığı azaldaraq bərpa olunan enerji resurslarına yönəlməsini "çox yaxşı" qiymətləndirənlərin 43.7%-i Rusiya-Ukrayna müharibəsi nəticəsində yaranan geosiyasi vəziyyətin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu daha da yüksəldəcəyinə, Cənub Qaz Dəhlizinin əhəmiyyətinin artacağına inanır.

### İnformasiya siyasəti

Prezidentin informasiya-kommunikasiya siyasətini (müsahibələrini, çıxışlarını və s.) respondentlərin 80.9%-i "çox yaxşı", 16.4%-i "əsasən yaxşı" qiymətləndirib.

❖ Nəticələrin təhlilinə əsasən "çox yaxşı" qiymətləndirənlər yuxarı yaş qrupunu təmsil edənlər, ali təhsillilər, dövlət və özəl sektorda çalışanlar, yüksək gəlir qrupunu təmsil edənlər və Qazax-Tovuz iqtisadi rayonunu təmsil edən respondentlər arasında qeydə alınıb.

❖ "Əsasən yaxşı" qiymətləndirənlər aşağı yaş qrupunu təmsil edənlər, tam orta təhsillilər, qadınlar, işləməyən və hal-hazırda iş axtarmayanlar, tələbələr, Dağlıq Şirvan və Quba-Xaçmaz iqtisadi rayonlarından olanlardır.




Prezidentin informasiya-kommunikasiya siyasətini "çox yaxşı" qiymətləndirənlərin 90.4%-i Prezidentin postmüharibə dövründə vətənpərvər, sağlam və intellektual gəncliyin yetişdirilməsi istiqamətində çağırışlarına da çox yaxşı yanaşıblar.

## 4.2. Dövlət orqanlarının, nazirlik, komitə və xidmətlərin fəaliyyətinə münasibət

Sorğu çərçivəsində müxtəlif dövlət orqanlarının aidiyyəti sahələr üzrə fəaliyyətinə də münasibət öyrənilib. Nəticələrin təhlilinə əsasən hərbi quruculuq (89.5%), əhalinin təhlükəsizliyi və ictimai sabitlik (74.3%), iqtisadiyyatın gücləndirilməsi və qeyri-neft sektorunun inkişafı (63.2%) sahələrində aidiyyəti dövlət orqanlarının fəaliyyəti vətəndaş rəyində ən çox müsbət qiymət alıb. Həmçinin hərbi quruculuq, əhalinin təhlükəsizliyi və ictimai sabitlik, ictimai-mədəni sahə, xarici siyasət, iqtisadiyyatın gücləndirilməsi və qeyri-neft sektorunun inkişafı, yol infrastrukturu və kommunal xidmətlərin göstərilməsi istiqamətlərində dövlət orqanlarının və qurumlarının fəaliyyəti sorğuda iştirak edən vətəndaşların yarısından çoxu tərəfindən tam səmərəli hesab olunub.

Vətəndaş rəyində müsbət qiymət baxımından ən sonuncu sıralarda büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsinə nəzarət və qiymət artımının qarşısının alınması sahəsində göstərilən fəaliyyət qərarlaşıb. Sözügedən istiqamətlər müvafiq olaraq respondentlərin 44.1%-i və 22.2%-i tərəfindən tam səmərəli hesab olunub. Sorğu iştirakçılarının 13.4%-i büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsinə nəzarət istiqamətində, respondentlərin 43.8%-i qiymət artımının qarşısının alınması istiqamətində fəaliyyəti tam səmərəsiz qiymətləndirib.

### Hərbi quruculuq

Vətəndaş rəylərində yüksək göstərici ilə ilk sırada hərbi quruculuq istiqamətində aidiyyəti dövlət orqanının fəaliyyəti qərarlaşıb. Sorğu iştirakçılarının 89.5%-i hərbi quruculuq sahəsində fəaliyyəti səmərəli, 7.9%-i qismən səmərəli, cəmi 1.9%-i səmərəsiz hesab edib. Respondentlərin 0.7%-i bu barədə fikir bildirməkdə çətinlik çəkib. Sorğu nəticələrində əksini tapan bu yüksək nəticə aidiyyəti dövlət orqanlarının fəaliyyətinə ictimai etimad və rəğbət göstəricisi hesab oluna bilər.

### Əhalinin təhlükəsizliyi və ictimai sabitlik

Əhalinin təhlükəsizliyi və ictimai sabitlik sahəsində dövlət strukturlarının fəaliyyəti sorğu işti-

rakçılarının 74.3%-i tərəfindən səmərəli, 20.6%-i tərəfindən qismən səmərəli hesab olunub. Rəyi öyrənilənlərin cəmi 4.4%-i bu sahədə fəaliyyəti səmərəsiz hesab etdiyini bildirib. Respondentlərin 0.7%-i bu barədə fikir bildirməkdə çətinlik çəkib.

### İqtisadiyyatın gücləndirilməsi və qeyri-neft sektorunun inkişafı

Dövlət başçısının iqtisadi məzmunlu çıxışlarında daim vurğulanan iqtisadiyyatın gücləndirilməsi və qeyri-neft sektorunun inkişafına üstünlük verilməsi məsələsi yeni iqtisadi strategiyanın əsasını təşkil edir. Bu istiqamətdə aidiyyəti dövlət orqanlarının fəaliyyəti ictimai rəy əsasında qiymətləndirilib. Respondentlərin 63.2%-i bu sahədə fəaliyyəti çox səmərəli, 27.4%-i qismən səmərəli hesab etdiyini bildirib. Sorğu iştirakçılarının 6.3%-i bu sahədə fəaliyyəti səmərəsiz hesab edib. Respondentlərin 3.2%-i rəy bildirməkdə çətinlik çəkib.

### Xarici siyasət

Xarici siyasət sahəsində fəaliyyət də respondent rəylərində əsasən müsbət qiymətləndirilib. Sorğu iştirakçılarının 61.8%-i bu sahədə fəaliyyəti çox səmərəli, 28.4%-i qismən səmərəli hesab edib. Sorğu iştirakçılarının cəmi 5.4%-i xarici siyasət sahəsində aidiyyəti orqanların fəaliyyətini səmərəsiz hesab edib, 4.4%-i cavab verməkdə çətinlik çəkib.

### İctimai-mədəni sahə

İctimai-mədəni sahə xüsusən postmüharibə dövründə aktuallıq kəsb edib. Ölkənin ayrı-ayrı regionlarında, eləcə də işğaldan azad olunmuş ərazilərdə bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilib. Sorğu çərçivəsində respondentlərin bu sahədə aidiyyəti dövlət orqanlarının fəaliyyətinə münasibəti öyrənilib. Sorğu iştirakçılarının 61.9%-i fəaliyyəti tam səmərəli qiymətləndirib. Respondentlərin 29.3%-i əsasən səmərəli, 6.0%-i səmərəsiz cavablarını qeyd edib, 2.9%-i cavab verməkdə çətinlik çəkib.

### Ərzaq təhlükəsizliyi və keyfiyyətli ərzaq təminatı

Cari il və gələcək dövr üçün mühüm problemlərdən biri kimi ərzaq təhlükəsizliyi və keyfiyyətli ərzaq təminatı məsələsinə münasibətdə respondentlərin təqribən yarısı, yəni 49.4%-i aidiyyəti dövlət orqanlarının fəaliyyətini səmərəli qiymətləndirib. Sorğuda iştirak edənlərin 37.5%-i bu sahədə fəaliyyəti qismən səmərəli, 12.3%-i səmərəsiz qiymətləndirib. Respondentlərin 0.8%-i bu barədə fikir bildirməyib.

### Yol infrastrukturu və kommunal xidmətlərin göstərilməsi

Yol infrastrukturu və kommunal xidmətlərin göstərilməsi sahəsində aidiyyəti qurumların fəaliyyətinə ictimai münasibət öyrənilib. Rəy sorğusunda iştirak edənlərin 58.0%-i bu sahədə fəaliyyəti səmərəli, 28.5%-i qismən səmərəli, 12.5%-i səmərəsiz qiymətləndirib, 1.1%-i fikir bildirməkdə çətinlik çəkib.

### Sosial müdafiə

Pandemiya və postmüharibə dövründə ictimai tələbat səviyyəsi artan sosial müdafiə və təminat istiqamətində aidiyyəti orqanların fəaliyyəti rəyi öyrənilənlərin 44.0%-i tərəfindən səmərəli hesab olunub. Respondentlərin 38.7%-i bu sahədə fəaliyyəti qismən səmərəli, 14.8%-i səmərəsiz qiymətləndirib. Sorğu iştirakçılarının 2.6%-i bu barədə fikir bildirməkdə çətinlik çəkib.

### Korrupsiyaya qarşı mübarizə

Bütün dövrlər üzrə dövlət siyasətinin əsas xətlərindən birini təşkil edən korrupsiyaya qarşı mübarizə cari il ərzində də prioritet sahələrdən olub. Məlumat üçün qeyd edək ki, cari il ərzində bu istiqamətdə dövlət başçısı tərəfindən yeni milli fəaliyyət planı təsdiqlənib. Rəy sorğularının nəticəsinə görə, bu sahədə dövlət orqanlarının fəaliyyəti respondentlərin 48.9%-i tərəfindən səmərəli, 31.5%-i tərəfindən qismən səmərəli, 17.5%-i tərəfindən səmərəsiz qiymətləndirilib. Respondentlərin 2.2%-i bu barədə fikir bildirməkdə çətinlik çəkib.

### Keyfiyyətli səhiyyə xidmətləri ilə təminat

Keyfiyyətli səhiyyə xidmətləri ilə təminat sorğu iştirakçılarının 44.6%-i tərəfindən səmərəli, 37.2%-i tərəfindən qismən səmərəli, 16.5%-i tərəfindən səmərəsiz qiymətləndirilib. Respondentlərin 1.6%-i cavab verməkdə çətinlik çəkib.

### Büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsi

Bu sahədə aidiyyəti orqanların fəaliyyəti respondentlərin 44.1%-i tərəfindən səmərəli hesab olunub. Sorğuda iştirak edənlərin 35.6%-i qismən səmərəli cavabını qeyd edib, 13.4%-i isə səmərəsiz hesab edib. Həmçinin respondentlərin 6.9%-i rəy bildirməkdə çətinlik çəkib.




### Qiymət artımının qarşısının alınması

İctimai rəy sorğusunun nəticələri baxımından sonuncu yerdə aidiyyəti strukturlar tərəfindən qiymət artımının qarşısının alınması sahəsində fəaliyyət qərarlaşıb. Respondentlərin cəmi 22.2%-i bu sahədə fəaliyyəti səmərəli, 32.4%-i qismən səmərəli hesab edib. Sorğu iştirakçılarının 43.8%-i qiymət artımının qarşısının alın-

ması sahəsində tədbirləri səmərəsiz qiymətləndirib. Respondentlərin 1.6%-i cavab verməkdə çətinlik çəkib.

❖ Nəticələrin təhlili Prezidentin müxtəlif istiqamətlərdə fəaliyyətinə münasibət ilə ayrı-ayrı dövlət strukturlarının müvafiq sahələrdə fəaliyyətinə ictimai mövqenin bir-birindən əhəmiyyətli dərəcədə fərqləndiyini göstərir.

❖ Yaş qrupu üzrə nəzər yetirdikdə, ərzaq təhlükəsizliyi və keyfiyyətli ərzaq təminatı, sosial müdafiə, korrupsiyaya qarşı mübarizə, büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsi kimi sahələrdə aidiyyəti orqanların fəaliyyəti aşağı yaş qrupları ilə müqayisədə yuxarı yaş qrupları tərəfindən daha az səmərəli hesab olunub.

❖ Yaşayış məntəqəsinin növünə görə təhlil etdikdə, demək olar ki, bütün fəaliyyət sahələri üzrə dövlət orqanlarının fəaliyyətini şəhər ərazi vahidləri ilə müqayisədə kənd ərazi vahidlərində yaşayan respondentlər daha müsbət qiymətləndirib.

Müqayisə üçün qeyd edək ki, 2021-ci ilin noyabr-dekabr ayları üzrə keçirilmiş sorğularda əhalinin təhlükəsizliyi istiqamətində fəaliyyət respondentlərin 57.5%-i tərəfindən tam səmərəli hesab olunub. Cari sorğu üzrə analoji nəticə 74.3% təşkil edib. İqtisadiyyatın gücləndirilməsi sahəsində fəaliyyət əvvəlki sorğuda respondentlərin 51.4%-i tərəfindən tam səmərəli hesab olunarkən, hazırkı sorğuda bu nəticələr 63.2%-ə yüksəlib.

### 4.3. Ölkənin 5 mühüm problemi və Prezidentdən əsas ictimai gözləntilər

“İnam indeksi”nin əvvəlki saylarında və hazırkı buraxılışında rəy sorğusu əsasında vətəndaşların ölkədə əsas problem hesab etdiyi beş ən mühüm məsələ öyrənilib. Bu barədə respondent rəyləri dövrlər üzrə dinamik dəyişməklə cari nəticələr sorğunun əhatə etdiyi dövrlə məhdudlaşır. Respondent rəylərinin təhlilinə əsasən, qeyd olunan beş əsas problem arasında ardıcıllıq üzrə ən çox qiymətlərin bahalaşması məsələsi (59.0%), süni qiymət artımının tənzimlənməməsi (46.7%) və narkomaniya problemi (47.6%)



qeyd olunub.

❖ Qiymətlərin bahalaşması, eləcə də süni qiymət artımının tənzimlənməməsi problemi yüksək gəlir qrupları ilə müqayisədə aşağı gəlir qrupuna mənsub respondentlər tərəfindən daha çox ifadə edilib.

❖ Məşğulluğun təminatı problemi şəhər və qəsəbədə yaşayan respondentlərlə müqayisədə kənddə məskunlaşan respondentlər tərəfindən daha çox qeyd olunub.

❖ Məşğulluğun təminatı məsələsini bildirən respondentlərin cəmi 31.0%-i, maddi təminat problemini qeyd edən respondentlərin cəmi 39.4%-i, sosial problemlərin operativ həll olunmaması məsələsini diqqətə çatdıran respondentlərin isə cəmi 26.7%-i aidiyyəti dövlət orqanının sosial müdafiə sahəsində fəaliyyətini "çox səmərəli" qiymətləndirib.

❖ Korrupsiya problemini qeyd edən respondent qrupu dövlət başçısının korrupsiyaya qarşı mübarizə fəaliyyətini "çox yaxşı" (54.8%) qiymətləndirərkən, korrupsiyaya qarşı mübarizə sahəsində aidiyyəti dövlət orqanlarının fəaliyyətini onların cəmi 38.6%-i "çox səmərəli" qiymətləndirib.

❖ Problemlərin bölgüsünü iqtisadi rayonlar üzrə nəzərdən keçirdikdə, məşğulluğun təminatı, qiymətlərin bahalaşması, süni qiymət artımının tənzimlənməməsi və narkomaniya problemləri daha çox Bakı və Lənkəran-Astara iqtisadi rayonları üzrə, maddi təminat və korrupsiya problemləri daha çox Bakı iqtisadi rayonu üzrə, səhiyyənin vəziyyəti Bakı və Qarabağ iqtisadi rayonları üzrə, təhsilin vəziyyəti Bakı və Quba-Xaçmaz iqtisadi rayonları üzrə sorğuda iştirak edən respondentlər tərəfindən qeyd olunub.

2021-ci ilin aprel ayı üzrə keçirilən sorğuda ən aktual problemlər kimi ilk sırada məşğulluğun təminatı, təhsilin vəziyyəti və insanların maddi vəziyyəti məsələləri qərarlaşıb. Noyabr-dekabr ayları üzrə keçirilmiş sorğuda isə məşğulluğun təminatı, qiymətlərin bahalaşması və maddi təminat məsələləri ən aktual problemlər kimi qeydə alınıb. Məşğulluğun təminatı məsələsi ötən ilin aprel və noyabr-dekabr ayları üzrə keçirilən sorğularda 53.2% və 56.9%



olaraq ilk sırada yer alarkən, cari sorğunun nəticələrində cəmi 20.4% respondent tərəfindən ifadə edilib. Qiymətlərin bahalaşması problemi 59.0% respondent rəyi ilə ilk sırada qərarlaşıb, halbuki noyabr-dekabr ayları üzrə keçirilən sorğuda bu problem respondentlərin 53.1%-i tərəfindən qeyd edilib. Keçirilən hər üç sorğu üzrə “Məni narahat edən problem yoxdur” cavabını qeyd edənlər respondentlərin təqribən 7.5%-ni təşkil edib.

Respondentlərin dövlət başçısından gözləntilərini öyrənmək məqsədilə onlara bu istiqamətdə suallar ünvanlanıb. Qeyd etmək olar ki, dövlət başçısının aidiyyəti qurumlar qarşısında qoyduğu tələblər cəmiyyətin gözləntilərindən irəli gəlir. Bu baxımdan sorğu nəticələrində qeydə alınan gözlənti və tələblər aidiyyəti qurumların fəaliyyəti ilə bağlı ictimai tələbləri özündə əks etdirir.

Rəy sorğularının nəticəsinə görə, Prezidentdən əsas gözləntilər kimi yeni iş yerlərinin yaradılması (80.6%), sosial rifahın daha da yaxşılaşdırılması (63.6%), məmur özbaşınalığının qarşısının alınması (60.1%) məsələləri ilk sıralarda yer alıb.

❖ Sosial rifahın daha da yaxşılaşdırılması şəhərdə yaşayan respondentlərin gözləntiləri arasında ən çox qeyd etdiyi cavab variantı olub. Yeni iş yerlərinin yaradılması gözləntisi isə daha çox kənddə yaşayan, həmçinin tam orta təhsilli və aşağı gəlir qrupuna mənsub respondentlər tərəfindən ifadə olunub.

❖ Regionlarda yerli idarəetmənin təkmilləşdirilməsi, yeni iş yerlərinin yaradılması daha çox Bakı və Lənkəran-Astara iqtisadi rayonları üzrə, səhiyyə xidmətinin keyfiyyətinin artırılması daha çox Bakı, Quba-Xaçmaz, Lənkəran-Astara və Şəki-Zaqatala iqtisadi rayonları üzrə, sosial rifahın yaxşılaşdırılması Bakı iqtisadi rayonu üzrə məskunlaşan respondentlər tərəfindən daha çox qeyd olunub.

❖ Qarabağda birgəyaşayışın, sülhün tapılması və ermənilərin Azərbaycana inteqrasiyası yuxarı yaş qrupuna mənsub respondentlər tərəfindən, yeni iş yerlərinin yaradılması və sosial rifahın yaxşılaşdırılması orta yaş qrupuna mənsub respondentlər tərəfindən daha çox qeyd olunan gözləntilər olub.

Keçirilmiş əvvəlki sorğuların və cari sorğu nəticələrinin müqayisəli təhlili respondentlərin Prezidentdən gözləntilərinin dövrlər üzrə nisbətən fərqləndiyini göstərir. 2021-ci ilin aprel ayı üzrə keçirilən sorğularda əsas gözləntilər ardıcıllıq üzrə əhalinin sosial rifahının daha da yaxşılaşdırılması (75.3%), yeni iş yerlərinin yaradılması (74.4%) və şəhid ailələrinin, qazilərin, müharibə iştirakçılarının yaşayış vəziyyətinin yüksək səviyyədə təmin edilməsi (71.7%) məsələləri olub. 2021-ci ilin noyabr-dekabr ayları üzrə əsas gözləntilər yeni iş yerlərinin yaradılması (80.5%), şəhid ailələrinin, müharibə iştirakçılarının yaşayış vəziyyətinin yüksəldilməsi (69.8%), sosial rifahın daha da yaxşılaşdırılması (65.8%) kimi sıralanıb.

Ümumiyyətlə, müharibədən əvvəlki dövr üzrə keçirilmiş sorğularda torpaqların işğaldan azad edilməsi respondentlərin gözləntiləri arasında ilk sıralarda yer alarkən, postmüharibə, eləcə də postpandemiya dövründə sosial təminat məsələləri daha aktual xarakter daşıyıb. Digər tərəfdən qlobal məkanda geosiyasi, müharibə və digər amillərdən irəli gələn və ölkəyə təsirsiz ötüşməyən ərzaq çatışmazlığı, qiymət artımı kimi problemlər sosial təminat gözləntilərini yüksəldir.

### 4.4. Prezidentin fəaliyyətinə dair informasiya mənbələri

Prezidentin cari ilin ilk dörd ayı ərzində genişmiqyaslı ictimai-siyasi fəaliyyəti ilə bağlı respondentlərin əsas informasiya mənbələri sorğu əsasında öyrənilib. Bu istiqamətdə respondentlərə bir neçə cavab variantı seçmək imkanı yaradılıb. Nəticələrin təhlilinə əsasən qeyd etmək olar ki, respondentlərin mütləq əksəriyyəti dövlət başçısının fəaliyyəti haqqında məlumat alır. Ötən dövr üçün əldə olunan nəticələrə uyğun olaraq, cari sorğu nəticələrində də televiziya əsas informasiya mənbəyi kimi vətəndaş rəylərində ilk sırada qərarlaşıb. Belə ki, respondentlərin 79.6%-i dövlət başçısının fəaliyyətinə dair məlumatları televiziya kanallarından aldığını bildirib. Növbəti sırada əsas informasiya mənbəyi kimi internet resursları qərarlaşıb. Belə ki, respondentlərin 37.1%-i tərəfindən sosial şəbəkələr, 21.9%-i tərəfindən internet saytları əsas məlumat mənbəyi kimi qeyd olunub. Rəyi öyrənilənlərin 3.1%-i dövlət başçısının fəaliyyəti haqqında məlumatları öz yaxın ətrafından aldığını bildirib. Ümumiyyətlə, Prezidentin fəaliyyətini izləmədiyini qeyd edənlər respondentlərin cəmi 0.4%-ni təşkil edib.

Sorğu nəticələrinin təhlilinə əsasən məlumatları televiziyadan aldıqlarını bəyan edən respondentlərin sayında yuxarı yaş qruplarına doğru artım qeydə alınıb. Həmçinin sosial şəbəkələri əsas məlumat mənbəyi kimi qeyd




edənlər əsasən aşağı yaş qrupuna mənsub respondentlər olub.

Ötən sorğuların və cari sorğu nəticələrinin müqayisəsi üçün qeyd edək ki, 2021-ci ilin aprel və noyabr-dekabr ayları üzrə keçirilən sorğularda əsasən məlumat mənbəyi kimi televiziyaları qeyd edənlər 76.6% təşkil edib. Növbəti məlumat mənbəyi olaraq aprel və noyabr-dekabr ayları üzrə keçirilmiş sorğularda respondentlərin 53.2%-i və 40.1%-i sosial şəbəkələr variantını qeyd edib. Cari sorğu üzrə analoji göstərici 37.1% olub.

# V BÖLMƏ.
# İNAM VƏ ETİMADIN DİNAMİKASI

## 5.1. Prezidentə inam və etimad

Ötən dövrə və cari ilin əvvəlinə aid sorğu nəticələri Prezidentə inam və etimadın yüksək olduğunu göstərir. Bu göstərici eləcə də ayrı-ayrı beyin mərkəzlərinin ölkəmizdə keçirdiyi sorğularda, müxtəlif beynəlxalq tədqiqatlarda öz təsdiqini tapıb.

İnam və etimad dövlət başçısının yüksək ictimai-siyasi fəaliyyətindən və vətəndaşların mövqeyində Prezidentə münasibətin dəyişməzliyindən irəli gəlir. Ümumiləşdirərək qeyd etmək olar ki, cari ilin yanvar-aprel aylarını əhatə edən dövrdə ölkə rəhbəri tərəfindən ictimaiyyətə açıq məlumatlara əsasən beynəlxalq və yerli səviyyəli 20-dən çox görüş və səfər, 30-dan çox müşavirə, müsahibə və mətbuat konfransı səviyyəli tədbirlərdə çıxış, 50-yə yaxın qəbul, xarici ölkə rəhbərləri və rəsmiləri ilə 20-dən artıq telefon danışığı, əsas hissəsi işğaldan azad olunan əraziləri əhatə etməklə 30-dan çox təməlqoyma və açılış mərasimi həyata keçirilib.

Sosial Tədqiqatlar Mərkəzi tərəfindən keçirilən sorğunun nəticələrinə əsasən respondentlərin 88.1%-i Prezidentə tam etibar etdiyini, 10.2%-i əsasən etibar etdiyini bildirib. Rəyi soruşulanların cəmi 0.7%-i əsasən etibar etmədiyini, 0.7%-i heç etibar etmədiyini qeyd edib. Respondentlərin 0.3%-i bu barədə mövqe bildirməkdə çətinlik çəkib.

Birinci vitse-prezidentə münasibətdə də respondentlərin etibarlılıq səviyyəsi sorğuda yüksək qeydə alınıb. Belə ki, sorğu iştirakçılarının 78.9%-i Birinci vitse-prezidentə tam etibar etdiyini, 15.6%-i əsasən etibar etdiyini bildirib. Respondentlərin cəmi 1.0%-i əsasən etibar etmədiyini, 3.4%-i heç etibar etmədiyini qeyd edib. Rəyi soruşulanların 1.0%-i bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkib.

❖ Nəticələrin təhlili respondentlərin mütləq əksəriyyətinin mənsub olduğu yaş qrupundan, təhsil və gəlir səviyyəsindən, yaşayış yerindən



asılı olmayaraq Prezidentə və Birinci vitse-prezidentə inam və etimadının yüksək olduğunu göstərib.

❖ Prezidentə və Birinci vitse-prezidentə inam və etimad göstəricilərini regional müstəvidə nəzərdən keçirdikdə, Qarabağ, Qazax-Tovuz, Dağlıq Şirvan, Quba-Xaçmaz və Lənkəran-Astara iqtisadi rayonları üzrə sorğuda iştirak edənlərin bütövlükdə hamısı Prezidentə çox və ya əsasən etibar etdiyini bildirib. Müqayisə etibarilə nisbətən daha az göstərici Abşeron-Xızı iqtisadi rayonu üzrə sorğuda iştirak edənlər arasında qeydə alınıb.

❖ Məşğulluq göstəriciləri baxımından dövlət və özəl sektorda çalışanların işsiz olub, lakin hal-hazırda iş axtarmayanlarla müqayisədə daha yüksək mövqeyi qeydə alınıb.

❖ Prezidentə tam etibar etdiyini bildirən respondentlərin 74.4%-i “Ölkə Prezidenti öz fəaliyyətində vətəndaşların rəyini nəzərə alır” fikri ilə tam razı olduğunu bildirib.

Prezidentə olan ictimai inam və etimad daim yüksək olmaqla, 2021-ci ilin aprel ayından 2022-ci ilin may ayına qədər təqribən bir illik dövr ərzində keçirilən sorğular zamanı nisbi dəyişikliklər qeydə alınıb. Belə ki, Prezidentə tam etibar etdiyini bildirənlər 2021-ci ilin aprel ayı üzrə 88.3%, noyabr-dekabr ayları üzrə 91.2%, cari nəticələr üzrə 88.1% təşkil edib. Birinci vitse-prezidentə tam etibar etdiyini bildirənlər 2021-ci ilin aprel ayı üzrə 82.5%, noyabr-dekabr ayları üzrə 84.9%, cari nəticələr üzrə 78.9% təşkil edib.

### 5.2. Milli Məclisə və məhkəmə orqanlarına inam və etimad

Rəy sorğusu əsasında hakimiyyətin digər qollarına, parlament və məhkəmə təsisatlarına olan ictimai inam və etimad səviyyəsi də öyrənilib. Qeyd edək ki, sözügedən institutlara inam və etimad dövri olaraq dəyişməklə nəticələr məhz sorğunun keçirildiyi zaman intervalına olan vəziyyəti əks etdirir.

Sorğu iştirakçılarının 32.5%-i Milli Məclisə tam etibar etdiyini, 37.7%-i əsasən etibar etdiyini bəyan edib. Respondentlərin 4.7%-i əsasən etibar etmədiyini, 22.2%-i isə heç etibar etmədiyini bildirib. Rəyi soruşulanların 3.0%-i bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkib.

❖ Regional müqayisədə nəzərdən keçirsək, Qazax-Tovuz, Mərkəzi Aran, Şəki-Zaqatala iqtisadi rayonları üzrə sorğu iştirakçılarında daha müsbət, Abşeron-Xızı, Bakı, Şirvan-Salyan iqtisadi rayonları üzrə nisbətən az müsbət mövqe qeydə alınıb. Belə ki, bu iqtisadi rayonlar üzrə sorğuda iştirak edənlərin orta hesabla üçdə biri



Milli Məclisə heç etibar etmədiyini bildirib.

❖ Kənd və qəsəbə üzrə məskunlaşan respondentlərin müvafiq olaraq 77.7%-i və 76.3%-i, şəhər üzrə məskunlaşan respondentlərin isə 56.1%-i Milli Məclisə bu və ya digər dərəcədə etibar etdiyini bildirib. Şəhər üzrə məskunlaşan respondentlərin 4.6%-i "əsasən etibar etmirəm", 35.0%-i isə "heç etibar etmirəm" cavab variantlarını qeyd edib.

Sorğu nəticələrinin təhlilinə əsasən, respondentlərin 37.6%-i məhkəmələrə tam, 24.0%-i isə əsasən etibar etdiyini bildirib. Rəyi öyrənilənlərin 15.6%-i əsasən etibar etmədiyini, 17.2%-i isə heç etibar etmədiyini ifadə edib. Respondentlərin 5.7%-i bu istiqamətdə mövqe bildirməkdə çətinlik çəkib. Göründüyü kimi, məhkəmə institutlarına olan ictimai inam və etimadla parlamentə olan münasibət arasında uyğunluq müşahidə olunur.

❖ Aidiyyəti qurumların korrupsiyaya qarşı mübarizə fəaliyyətini səmərəsiz hesab edən respondentlərin 54.4%-i həmçinin məhkəmələrin fəaliyyətinə heç etibar etmədiyini bildirib.

❖ Regional müstəvidə nəzər yetirsək, Qazax-Tovuz, Dağlıq Şirvan, Şəki-Zaqatala iqtisadi rayonları üzrə sorğu iştirakçılarında daha çox müsbət, Abşeron-Xızı, Bakı, Mil-Muğan iqtisadi rayonları üzrə nisbətən az müsbət mövqe qeydə alınıb.

❖ Kənd və qəsəbə üzrə məskunlaşan respondentlərin müvafiq olaraq 79.1%-i və 70.3%-i, şəhər üzrə məskunlaşan respondentlərin isə 59.8%-i məhkəmələrə bu və ya digər dərəcədə etibar etdiyini bildirib. Şəhər üzrə məskunlaşan respondentlərin 5.1%-i "əsasən etibar etmirəm", 29.9%-i isə "heç etibar etmirəm" cavab variantlarını qeyd edib.

Nəticələrin təhlili parlament və məhkəmə institutlarına olan ictimai inam və etimad arasında müəyyən uyğunluq olduğunu göstərir. Milli Məclisə inam və etimad göstəricilərini dövri olaraq nəzərdən keçirdikdə ümumilikdə çox və ya əsasən etibar etdiyini bildirənlər 2020-ci ilin mart və iyun ayları üzrə 57.4% və 61.5%, 2021-ci ilin aprel və noyabr-dekabr ayları üzrə 62.2% və 63.2%, cari sorğu nəticələri üzrə 70.2% təşkil edib. Məhkəmə orqanlarına ictimai inam və etimadı nəzərdən keçirdikdə bu orqanlara çox və ya əsasən etibar etdiyini bildirənlər 2020-ci ilin mart və iyun ayları üzrə 49.0% və 59.0%, 2021-ci ilin aprel və noyabr-dekabr ayları üzrə 60.7% və 63.8%, cari sorğu nəticələri üzrə 71.6% təşkil edib.

### 5.3. Yuxarı və yerli icra hakimiyyəti orqanlarına inam və etimad

Sorğu çərçivəsində respondentlərin yuxarı icra orqanı kimi Nazirlər Kabinetinə və yerli icra hakimiyyəti orqanlarına inam və etimadı da öyrənilib. Qeyd edək ki, bu orqanlara ictimai münasibət də dövri olaraq dəyişməklə nəticələr məhz sorğunun keçirildiyi dövrə aid vəziyyəti əks etdirir.

Sorğu iştirakçılarının 35.8%-i Nazirlər Kabinetinə tam, 36.0%-i əsasən etibar etdiyini bildirib. Əks mövqedən çıxış edənlər isə ümumilikdə 23.6% təşkil edib (5.4%-i əsasən etibar etmir, 18.2%-i heç etibar etmir). Başqa sözlə, təqribən hər dörd respondentdən biri Nazirlər Kabinetinə etibar etmədiyini bildirib. 4.6% respondent mövqe bildirməkdə çətinlik çəkib.

❖ Məşğulluq göstəriciləri üzrə nəzər yetirsək, dövlət sektorunda çalışanların 80.1%-i Nazirlər Kabinetinə ümumilikdə çox və ya əsasən etibar etdiyini bildirib. Bu və ya digər dərəcədə etibar etmədiyini bildirənlər əsasən özəl sektorda çalışanlar və işsiz respondentlər qrupu olub.

❖ Cari il ərzində gəlirlərinin azaldığını bildirən respondentlərin gəlirləri dəyişməyən və gəlirləri artan respondentlərlə müqayisədə sözügedən dövlət strukturuna nisbətən az inam və etimadı olduğu qeydə alınıb.

❖ Respondentlərin Nazirlər Kabinetinə inam və etimad göstəriciləri ilə mərkəzi icra hakimiyyəti orqanlarının aidiyyəti sahələrdə fəaliyyətinə münasibət arasında düz mütənasib asılılıq qeydə alınıb.

Sorğu iştirakçılarının 22.7%-i yerli icra hakimiyyəti orqanlarına tam, 22.8%-i əsasən etibar etdiyini bildirib. Rəyi soruşulanların 14.1%-i əsasən etibar etmədiyini, 37.3%-i heç etibar etmədiyini qeyd edib. Respondentlərin 3.2%-i qərarsız mövqe nümayiş etdirib.

❖ İnam və etimad göstəricilərini regional müqayisədə nəzərdən keçirsək, Qazax-Tovuz, Dağlıq Şirvan, Şəki-Zaqatala iqtisadi rayonları üzrə nisbətən çox müsbət, Gəncə-Daşkəsən, Quba-Xaçmaz iqtisadi rayonları üzrə nisbətən az müsbət göstəricilər əldə olunub.

❖ Kənd və qəsəbələrdə yaşayan respondentlərin mövqeyi müsbət, şəhərdə yaşayan respondentlərin mövqeyi mənfi mənada fərqlənib. Belə ki, şəhərdə yaşayan respodentlərin təqribən üçdə biri yerli icra hakimiyyəti orqanına heç etibar etmədiyini bildirib.

Ötən illər üzrə nəticələrin və cari sorğu nəticələrinin müqayisəsinə görə, Nazirlər Kabine-




tinə tam etibar edənlər 2020-ci ilin iyun ayı üzrə 27.9%, 2021-ci ilin aprel, noyabr-dekabr ayları üzrə 31.8% və 36.3%, cari sorğu nəticələri üzrə 35.8% təşkil edib. Yerli icra hakimiyyəti orqanlarına isə tam etibar edənlər 2020-ci ilin iyun ayı üzrə 30.7%, 2021-ci ilin aprel, noyabr-dekabr ayları üzrə 27.4% və 30.3%, cari sorğu nəticələri üzrə 22.7% təşkil edib.

# NƏTİCƏ

## İnam və etimad

"İnam indeksi" buraxılışı Prezidentə və hakimiyyətin digər qollarına ictimai inam və etimadı rəy sorğusu əsasında dövri olaraq qiymətləndirir. 2022-ci ilin yanvar-aprel aylarını əhatə edən sorğunun nəticələrinin təhlili respondentlərin mütləq əksəriyyətinin mənsub olduğu yaş qrupundan, təhsil və gəlir səviyyəsindən, yaşayış yerindən asılı olmayaraq Prezidentə inam və etimadının yüksək olduğunu bir daha göstərir. Qeyd edək ki, inam və etimad dövlət başçısının yüksək ictimai-siyasi fəaliyyətindən və vətəndaşların mövqeyində Prezidentə münasibətin dəyişməzliyindən irəli gəlir. Cari sorğunun nəticələrinə əsasən respondentlərin 88.1%-i Prezidentə tam etibar etdiyini, 10.2%-i əsasən etibar etdiyini bildirib. Cəmi 0.7% respondent əsasən etibar etmədiyini, 0.7% respondent heç etibar etmədiyini qeyd edib. Respondentlərin 0.3%-i bu barədə mövqe bildirməkdə çətinlik çəkib.

Sorğuda respondentlərin Birinci vitse-prezidentə inam və etimad səviyyəsi də öyrənilib. Nəticələrə əsasən sorğu iştirakçılarının 78.9%-i Birinci vitse-prezidentə tam etibar etdiyini, 15.6%-i əsasən etibar etdiyini bildirib. Respondentlərin cəmi 1.0%-i əsasən etibar etmədiyini, 3.4%-i heç etibar etmədiyini qeyd edib. 1.0% respondent bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkib.

Rəy sorğusu əsasında hakimiyyətin digər qollarına, parlament və məhkəmə orqanlarına olan ictimai inam və etimad səviyyəsi öyrənilib. Qeyd edək ki, sözügedən institutlara inam və etimad dövri olaraq dəyişməklə nəticələr məhz sorğunun keçirildiyi zaman intervalına olan vəziyyəti əks etdirir. Belə ki, sorğu iştirakçılarının 32.5%-i Milli Məclisə tam etibar etdiyini, 37.7%-i əsasən etibar etdiyini bəyan edib. Respondentlərin 4.7%-i əsasən etibar etmədiyini, 22.2%-i isə heç etibar etmədiyini bildirib. 3.0% respondent bu istiqamətdə fikir bildirməkdə çətinlik çəkib.

Sorğu nəticələrinin təhlilinə əsasən, respondentlərin 37.6%-i məhkəmələrə tam, 24.0%-i isə əsasən etibar etdiyini bildirib. Rəyi öyrənilənlərin 15.6%-i əsasən etibar etmədiyini, 17.2%-i isə heç etibar etmədiyini qeyd edib. Respondentlərin 5.7%-i bu istiqamətdə mövqe bildirməkdə çətinlik çəkib. Göründüyü kimi, məhkəmə institutlarına olan ictimai inam və etimadla parlamentə olan münasibət arasında uyğunluq müşahidə olunur.

Sorğu iştirakçılarının 35.8%-i yuxarı icra orqanı kimi Nazirlər Kabinetinə tam, 36.0%-i əsasən etibar etdiyini bildirib. Əks mövqedən çıxış edənlər isə ümumilikdə 23.6% təşkil edib (5.4%-i əsasən etibar etmir, 18.2%-i heç etibar etmir). Başqa sözlə, təqribən hər dörd respondentdən biri Nazirlər Kabinetinə etibar etmədiyini bildirib. 4.6% respondent mövqe bildirməkdə çətinlik çəkib.

Sorğu iştirakçılarının 22.7%-i yerli icra hakimiyyəti orqanlarına tam, 22.8%-i əsasən etibar etdiyini bildirib. Rəyi soruşulanların 14.1%-i əsasən etibar etmədiyini, 37.3%-i heç etibar etmədiyini qeyd edib. Respondentlərin 3.2%-i qərarsız mövqe nümayiş etdirib.

Qeyd edək ki, respondentlərin Nazirlər Kabinetinə inam və etimad göstəriciləri ilə mərkəzi icra hakimiyyəti orqanlarının aidiyyəti sahələrdə fəaliyyətinə münasibət arasında düz mütənasib asılılıq qeydə alınıb.

## Prezidentin müxtəlif istiqamətlərdə fəaliyyətinə münasibət

Prezidentin müxtəlif istiqamətlər üzrə fəaliyyəti vətəndaş rəyində müsbət qiymətləndirilməklə ilk sıralarda 1) hərbi quruculuq (88.3% "çox yaxşı", 10.5% "əsasən yaxşı"), 2) xarici siyasət (84.8% "çox yaxşı", 13.8% "əsasən yaxşı"), 3) vətənpərvər, sağlam və intellektual gəncliyin yetişdirilməsi (83.1% "çox yaxşı", 14.5% "əsasən yaxşı") istiqamətində strateji fəaliyyəti qərarlaşıb.

Hesabat dövründə Prezidentin xarici ölkələrə səfərləri üzrə respondentlərin ən çox məlumatlı olduğu (92.2%) 10 mart 2022-ci il tarixində Türkiyəyə səfəri və R.T.Ərdoğanla görüşü, müqayisə etibarilə nisbətən az məlumatlı olduğu (82.9%) 06 aprel 2022-ci il tarixində etdiyi Brüssel səfəri və Aİ Şurasının Prezidenti və Ermənistan Baş naziri ilə üçtərəfli görüşü olub. Prezidentin Türkiyəyə səfəri və R.T.Ərdoğanla görüşünü respondentlərin 81.6%-i "çox əhəmiyyətli", 9.3%-i "əsasən əhəmiyyətli" qiymətləndirib.

Prezidentin sosial müdafiə istiqamətində fəaliyyəti respondentlərin 63.8%-i tərəfindən "çox yaxşı", 28.5%-i tərəfindən "əsasən yaxşı" qiymətləndirilib. Respondentlərin 3.1%-i "əsasən pis", 3.6%-i "çox pis" cavablarını qeyd edib.

Mövqe bildirməkdə çətinlik çəkənlər 1.0% təşkil edib. O cümlədən, Prezidentin şəhid ailələrinə və müharibə iştirakçılarına qayğı və dəstək fəaliyyətindən respondentlərin 76.9%-i çox razı, 17.2%-i əsasən razı olduğunu bildirib. Rəyi öyrənilənlərin 2.5%-i əsasən razı olmadığını, 2.7%-i heç razı olmadığını qeyd edib. Respondentlərin 0.7%-i bu barədə mövqe bildirməyib.

Prezidentin əhalinin sağlamlığının qorunması istiqamətində fəaliyyətini respondentlərin 68.3%-i "çox yaxşı", 24.9%-i "əsasən yaxşı" qiymətləndirib. Rəyi öyrənilənlərin 2.5%-i "əsasən pis", 3.1%-i "çox pis" cavablarını qeyd edib. Respondentlərin 1.3%-i mövqe bildirməkdə çətinlik çəkib.

Prezident tərəfindən aparılan kadr islahatları respondentlərin 57.2%-i tərəfindən "çox yaxşı", 30.3%-i tərəfindən "əsasən yaxşı" dəyərləndirilib. Respondentlərin 3.3%-i "əsasən pis", 4.9%-i "çox pis" mövqeyini bölüşüb. Rəyi öyrənilənlərin 4.3%-i cavab verməkdə çətinlik çəkib.

Prezidentin korrupsiyaya qarşı mübarizə istiqamətində fəaliyyəti respondentlərin 60.8%-i tərəfindən "çox yaxşı", 26.7%-i tərəfindən "əsasən yaxşı" qiymətləndirilib. Respondentlərin 3.7%-i "əsasən pis", 6.2%-i "çox pis" cavabını qeyd edib. Respondentlərin 2.6%-i rəy bildirməyib. O cümlədən, cari il ərzində dövlət başçısı tərəfindən təsdiq edilən "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın mümkün nəticələri kimi respondentlərin 51.1%-i korrupsiyaya qarşı mübarizədə şəffaflığı artıracağı, 40.8%-i göstərilən xidmətlərin keyfiyyətini yüksəldəcəyi, 26.6%-i korrupsiya hallarına qarşı ictimai nəzarəti və vətəndaş cəmiyyəti institutlarının rolunu artıracağı, 21.4%-i idarəetmə mexanizmlərini, 18.2%-i qanunverici bazanı təkmilləşdirəcəyi, 6.2%-i heç bir təsiri olmayacağı variantlarını qeyd edib. Ümumilikdə sorğu iştirakçılarının 23.4%-i sözügedən Milli Fəaliyyət Planı haqqında məlumatsız olduğunu bildirib.

Prezidentin ölkədə ictimai-siyasi sabitlik istiqamətində fəaliyyəti respondentlərin 75.0%-i tərəfindən "çox yaxşı", 22.4%-i tərəfindən "əsasən yaxşı" qiymətləndirilib. Rəyi öyrənilənlərin 0.6%-i "əsasən pis", 1.2%-i "çox pis" mövqeyini bölüşüb. Respondentlərin 0.8%-i bu barədə mövqe bildirməyib.

Prezidentin qeyri-neft sektorunun inkişafı sahəsində fəaliyyətini respondentlərin 65.9%-i "çox yaxşı", 25.8%-i "əsasən yaxşı" qiymətləndirib. Rəyi öyrənilənlərin 2.0%-i bu istiqamətdə fəaliyyəti "əsasən pis", 2.5%-i "çox pis" qiymətləndirib. Respondentlərin 3.8%-i cavab verməkdə çətinlik çəkib.

Azərbaycanın karbohidrogen ehtiyatlarından asılılığı azaldaraq bərpa olunan enerji resurslarına yönəlməsini respondentlərin 53.7%-i "çox yaxşı", 21.3%-i isə "əsasən yaxşı" qiymətləndirib. Rəyi soruşulanların 22.5%-i bu sahədə görülən işlərdən məlumatsız olduğunu bildirib. O cümlədən, Prezidentin daima diqqət mərkəzində saxladığı məsələlərdən biri kimi işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılmasını, Qarabağın yaşıl enerji zonasına çevrilməsini respondentlərin mütləq əksəriyyəti yüksək qiymətləndirib (88.2% "çox yaxşı", 7.5% "əsasən yaxşı"). Respondentlərin 3.3%-i bu barədə məlumatlı olmadığını bildirib.

Mövcud geosiyasi zəmində aktual olan əhalinin ərzaq təhlükəsizliyi və keyfiyyətli ərzaqla təminatı sahəsində dövlət başçısının fəaliyyəti respondentlərin 59.8%-i tərəfindən "çox yaxşı", 30.1%-i tərəfindən "əsasən yaxşı" qiymətləndirilib. Rəyi öyrənilənlərin cəmi 3.5%-i bu istiqamətdə fəaliyyəti "əsasən pis", 5.6%-i "çox pis" qiymətləndirib. Sorğu iştirakçılarının 1.0%-i mövqe bildirməyib.

**Dövlət orqanlarının fəaliyyətinə münasibət**

Əldə olunan nəticələrin təhlilinə əsasən, sorğuda əksini tapan üç sahə - hərbi quruculuq (89.5%), əhalinin təhlükəsizliyi və ictimai sabitlik (74.3%), iqtisadiyyatın gücləndirilməsi və qeyri-neft sektorunun inkişafı (63.2%) üzrə aidiyyəti dövlət orqanlarının (nazirlik, komitə və dövlət xidmətlərinin) fəaliyyəti vətəndaşlar tərəfindən daha səmərəli qiymətləndirilib. Digər sahələr üzrə müvafiq strukturların fəaliyyəti nisbətən fərqli qiymətləndirilməklə sonuncu sıralarda keyfiyyətli səhiyyə xidməti ilə təminat (44.6%), sosial müdafiə (44.0%), qiymət artımının qarşısının alınması (22.2%) üzrə aidiyyəti orqanların fəaliyyətləri qərarlaşıb.

Nəticələrin təhlili Prezidentin müxtəlif istiqamətlərdə fəaliyyətinə münasibət ilə ayrı-ayrı dövlət strukturlarının eyni istiqamətlərdə fəaliyyətinə ictimai mövqenin bir-birindən fərqləndiyini göstərir. Prezidentin sosial müdafiə sahəsində fəaliyyətini ümumilikdə yaxşı qiymətləndirən 92.3% respondentin cəmi 47.2%-i aidiyyəti strukturların sosial müdafiə sahəsində fəaliyyətini tam səmərəli hesab edib. Əhalinin sağlamlığının qorunması sahəsində dövlət başçısının fəaliyyətini ümumilikdə yaxşı qiymətləndirən 93.2% respondentin cəmi 47.4%-i keyfiyyətli səhiyyə xidmətləri ilə təminat sahəsində aidiy-

yəti strukturların fəaliyyətini tam səmərəli qiymətləndirib.

### Postmüharibə dövründə Prezidentin sülh gündəliyi

Prezident postmüharibə dövründə yürütdüyü xarici siyasət və diplomatiya nəticəsində regionda sabitliyə və genişmiqyaslı iqtisadi əməkdaşlığa xidmət edən sülh gündəliyinin region dövlətləri, həm də bu proseslərdə maraqlı tərəf kimi çıxış edən beynəlxalq təşkilatlar tərəfindən qəbuluna nail olub. İki ölkə arasında danışıqlar prosesi həm Brüssel, həm də Moskvanın vasitəçiliyi əsasında aparılsa da, proses ümumən rəsmi Bakının önə çəkdiyi prinsip və meyarlara söykənir: Ermənistan və Azərbaycanın biri-birinin ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması, sərhədlərin delimitasiya və demarkasiyası, kommunikasiyaların açılması və iqtisadi əlaqələrin bərpası. Bu amilləri nəzərə alıb respondentlərdən Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına münasibət soruşulub. Sorğunun nəticələrinə əsasən, yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanacağına və diplomatik əlaqələrin qurulacağına respondentlərin 37.1%-i çox inandığını, 28.0%-i isə əsasən inandığını bildirib. Rəyi öyrənilənlərin 7.0%-i əsasən inanmadığını, 26.3%-i isə iki ölkə arasında sülh müqaviləsinin imzalanacağına və diplomatik əlaqələrin qurulacağına heç inanmadığını bildirib.

Bundan başqa, sorğu çərçivəsində respondentlər postmüharibə dövründə Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşdırılmasında vasitəçi ölkə və yaxud təşkilat qismində əsasən Türkiyənin rolunu daha yüksək qiymətləndiriblər (85.9%). Sonrakı yerləri Rusiya (15.5%) və Avropa İttifaqı (8.8%) bölüşüb. ATƏT-in Minsk qrupunu respondentlərin cəmi 2.5%-i vasitəçi rolunda görüb. Tərəflər arasında əlaqələrin birbaşa olmasını respondentlərin 4.4%-i dəstəkləyib.

### Böyük qayıdışa hazırlıq və quruculuq işləri

Həm cari, həm də əvvəlki sorğuların nəticələri göstərir ki, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayış və yüksək rifah Prezidentin diqqət mərkəzində saxladığı məsələlərdir. Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərə, o cümlədən Qarabağa Böyük qayıdışın ölkə başçısı üçün prioritet olması onun çıxışlarında dəfələrlə qeyd olunub. Sosial Tədqiqatlar Mərkəzi tərəfindən 2021-ci ilin aprel ayında keçirilmiş sorğuda vətəndaş rəyi də onu bir daha təsdiq edib. Belə ki, həmin sorğuda rəyi soruşulanların 84.6%-i Qarabağa qayıdışın ölkə başçısı üçün prioritet olması fikri ilə tam, 12.2%-i qismən razı olduğunu bildirmişdi.

Cari sorğunun nəticələrinin təhlilinə əsasən Prezidentin təşəbbüsü və nəzarəti altında işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma tədbirləri respondentlərin 76.6%-nin gözləntilərini tam, 19.4%-nin isə əsasən doğruldur. Əks mövqedən çıxış edənlər cəmi 2.5%, mövqe bildirməkdə çətinlik çəkənlər isə 1.4% təşkil edib.

Həmçinin işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri barədə respondentlərin 37.4%-i çox, 53.0%-i isə əsasən məlumatlıdır. Rəyi soruşulanların 4.2%-i bu istiqamətdə görülən işlər barədə əsasən məlumatsız olduğunu, 5.2%-i heç bir məlumatı olmadığını bildirib.

### Problemlər və gözləntilər

Sorğu çərçivəsində vətəndaşlardan hazırda Azərbaycanda əsas problemlər kimi hansı məsələləri gördükləri soruşulub. Respondentlər onları narahat edən problemlər arasında ilk sıralarda qiymətlərin bahalaşması (59.0%), narkomaniya (47.6%), süni qiymət artımının tənzimlənməməsi (46.7%) məsələlərini qeyd ediblər.

Dövlət başçısı tərəfindən aidiyyəti qurumlar qarşısında qaldırılan məsələlər, verilən tapşırıqlar ictimai gözləntiləri əks etdirir. Bu mənada vətəndaşların Prezidentdən əsas gözləntiləri eyni zamanda aidiyyəti qurumların fəaliyyətindən irəli gələn məqamlar kimi şərh oluna bilər. Sorğu nəticələrinə əsasən məşğulluğun təminatı və yeni iş yerlərinin yaradılması (80.6%), sosial rifahın daha da yaxşılaşdırılması (63.6%), şəhid ailələrinin, müharibə iştirakçılarının yaşayış vəziyyətinin yüksəldilməsi (54.2%) Prezidentdən ictimai gözləntilər arasında ilk sırada qərarlaşıb.

Sorğu çərçivəsində respondentlərdən cari ilin birinci rübünü ümumilikdə özü və ölkəmiz üçün necə dəyərləndirdiyi də soruşulub. Əldə olunan nəticələrə əsasən, 2022-ci ilin birinci rübü ümumilikdə vətəndaşlar (36.6% “çox yaxşı”, 45.7%

“əsasən yaxşı”) və ölkəmiz üçün (48.0% “çox yaxşı”, 39.7% “əsasən yaxşı”) uğurlu olub. Bunun əksinə fikirləşənlər müvafiq olaraq 9.4% və 4.2% təşkil edir.

**Prezidentin informasiya-kommunikasiya siyasəti**

Prezidentin informasiya-kommunikasiya siyasətini (müsahibələrini, çıxışlarını və s.) respondentlərin 80.8%-i “çox yaxşı”, 16.3%-i “əsasən yaxşı” qiymətləndirib.

Sorğu iştirakçılarının 79.6%-i Prezidentin ictimai-siyasi sahədə fəaliyyəti ilə bağlı məlumatları televiziya kanallarından aldığını bildirib. İkinci sırada 37.1% göstərici ilə sosial şəbəkələr, üçüncü sırada isə 21.9% göstərici ilə internet saytları qərarlaşıb. Qeyd edək ki, respondentlər bir neçə cavab variantı seçiblər.

Sorğuda iştirak edən respondentlərin 45.6%-i bu qənaətdədir ki, Prezident yerlərdə baş verənlər barədə çox, 38.1%-i bu fikirdədir ki, əsasən məlumatlıdır. Rəyi soruşulanların 4.9%-i bu fikri bölüşür ki, Prezident yerlərdə baş verənlər barədə heç məlumatlı deyil. Respondentlərin 8.7%-i əsasən məlumatsız olduğunu düşünür.

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1073, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az www.stm.az